Azərbaycanın
görkəmli
şəxsiyyətləri

Sabir Rüstəmxanlı

Biblioqrafiya

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

Azərbaycanın görkəmli şəxsiyyətləri

SABİR RÜSTƏMXANLI

(Sabir Xudu oğlu Rüstəmxanlı)

Biblioqrafiya

BAKI – 2022

KBT: Я19: Ш+Ш5 (2=Аз) 7-44 я1
UOT: 016: 821.512.162

Elmi redaktor **Kərim Tahirov,**
Professor,
Əməkdar mədəniyyət işçisi

Ön sözün müəllifi: **İsa Həbibbəyli,**
Akademik, filologiya elmləri doktoru, Əməkdar elm xadimi

Redaktor: **Elnur Nəciyev**

Tərtib edənlər: **Xeyransa Abbasova**
Zəminə Əhmədova

Sabir Rüstəmxanlı (Sabir Xudu oğlu Rüstəmxanlı): Biblioqrafiya / Tərt. ed. X.Abbasova, Z.Əhmədova; elmi red. K.Tahirov; ön söz.müəl. İ.Həbibbəyli; red. E.Nəciyev. – Bakı, 2022.– 544 s.

Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı növbəti biblioqrafiya Azərbaycanın Xalq şairi, ictimai-siyasi xadim Sabir Rüstəmxanlıya həsr edilmişdir. Biblioqrafiyada şairin əsərləri, həyat və yaradıcılığı, ictimai-siyasi fəaliyyəti haqqında zəngin materiallar toplanmışdır. Vəsaitdə şairin həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri də öz əksini tapmışdır.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tarixçilər, politoloqlar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 553 09 3

© Azərbaycan Milli Kitabxanası, 2022

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

Выдающиеся личности Азербайджана

САБИР РУСТАМХАНЛЫ

(Сабир Худу оглы Рустамханлы)

Библиография

Баку – 2022

Научный редактор: **Керим Тахиров,**
Профессор,
Заслуженный работник культуры

Вступительное слово: **Иса Габиббейли,**
Академик, доктор филологических наук,
Заслуженный деятель науки

Редактор: **Эльнур Наджиев**

Составитель: **Хейранса Аббасова**
Замина Ахмедова

Сабир Рустамханлы (Сабир Худу оглы Рустамханлы): Библиография / Сост. Хейранса Аббасова З.Ахмедова; науч. ред. К.Тахиров; автор предсл. И.Габиббейли; ред. Э.Наджиев. – Баку, 2022.– 544 с.

Очередная библиография, подготовленная Азербайджанской Национальной Библиотекой в серии «Выдающиеся личности Азербайджана» посвящена народному поэту Азербайджана, общественно-политическому деятелю Сабиру Рустамханлы. В библиографии представлены произведения поэта, ценные материалы о его жизни и творчестве, общественно-политической деятельности. В пособии отражены основные даты жизни и творчества поэта, высказывания известных людей о нем.

Библиография предназначена для литературоведов, исследователей, библиотекарей-библиографов и широкой общественности.

ISBN 978 9952 553 09 3

© Национальная Библиотека Азербайджана, 2022

S.X.Rüstəmxanlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Sabir Xudu oğlu Rüstəmxanlı "Şöhrət" ordeni ilə təltif edilsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 20 may 2021-ci il

Распоряжение Президента Азербайджанской Республики о награждении С.Х. Рустамханлы орденом «Шохрат».

Руководствуясь пунктом 23 статьи 109 Конституции Азербайджанской Республики, постановляю:

Наградить Сабира Худу оглы Рустамханлы орденом «Шохрат» за многолетнюю плодотворную деятельность в общественно-политической и культурной жизни Азербайджанской Республики.

Ильхам Алиев,
Президент Азербайджанской Республики
город Баку, 20 мая 2021 года.

Göstərici haqqında

Xalq şairi, ictimai-siyasi xadim Sabir Rüstəmxanlı uzun yaradıcılıq yoluna malik istedadlı şair və yazıçıdır. XX əsrin sonlarından poeziyamızda milli ruh, milli düşüncə xəttini yüksək şəkildə davam etdirən Sabir Rüstəmxanlının kitablarında həqiqətlər, milli kimliyimiz, soykökümüzlə bağlı irəli sürdüyü faktlar danılmazdır. O, bu ideyalarını təkcə sözdə saxlamadı, Vətəndaş Həmrəyliyi Partiyasının sədri kimi ictimai fəaliyyətində də hər zaman əks etdirdi. Onun bir çox bədii əsərləri, publisistik və tənqidi məqalələri, məruzə və çıxışları, eləcə də yaradıcılığı haqqında elmi əsərlər, məqalə və rəylər müxtəlif mərkəzlərdə dərc edilmişdir. O, ən çox mütaliə edilən və həm də müxtəlif xalqların oxucusunun diqqətini cəlb edən ədiblərimizdəndir. Əsərləri türk, rus, gürcü, belarus, özbək, ingilis, fransız, ispan dillərinə tərcümə olunmuşdur.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib edilmiş "Sabir Rüstəmxanlı" adlı bu biblioqrafik göstərici yazıçı haqqında ilk fundamental biblioqrafiyadır. Biblioqrafiyada Sabir Rüstəmxanlının kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, redaktə etdiyi kitablar, rus və başqa dillərdə çap olunmuş əsərləri, habelə ədibin həyat və yaradıcılığını, ictimai-siyasi fəaliyyətini əks etdirən bütün nəşrlər verilmişdir.

Vəsaitdə materiallar bölmələr üzrə xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir. Biblioqrafiyada ilk dəfə olaraq verilmiş "Sabir Rüstəmxanlının əsərləri dünya kitabxanalarında" bölməsində toplanan sənədlər onun əsərlərinin bütün dünyada çox geniş yayılmasının əyani sübutudur.

Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə sonda yazıçının əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri də tərtib olunmuşdur.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57.
E-mail: contact@anl.az

Об указателе

Народный поэт, общественно-политический деятель Сабир Рустамханлы талантливый поэт и писатель, прошедший долгий и плодотворный творческий путь. Неоспоримо, что в книгах Сабира Рустамханлы прослеживаются идеи национальной идентичности, самоопределения, торжества национального духа, зародившиеся в азербайджанской поэзии в конце XX века. Эти благородные идеи остались не только в словах и книгах. Сабир Рустамханлы неизменно придерживался их в своей активной общественной деятельности, в качестве председателя Партии Гражданской Солидарности. Многие его художественные произведения, публицистические и критические статьи, доклады и выступления, а также научные труды, статьи и высказывания о его творчестве были опубликованы в различных источниках.

Сабир Рустамханлы один из наших самых востребованных писателей. Его творчество также привлекает внимание читателей из разных стран.Его произведения переведены на турецкий, русский, грузинский, белорусский, узбекский, английский, французский и испанский языки.

Библиографический указатель «Сабир Рустамханлы», составленный Национальной библиотекой Азербайджана имени М.Ф.Ахундова, является первой фундаментальной библиографией о писателе.

Библиография включает книги Сабира Рустамханлы; произведения, опубликованные в периодических изданиях, учебниках, журналах; научно-критические и публицистические статьи; переводы; книги, редактором которых он является; произведения, изданные на русском и других языках, а также все публикации, отражающие жизнь, творчество и общественную деятельность писателя.

Материалы в разделах представлены в хронологическом порядке, внутри же соблюдается алфавитный порядок.

Документы, впервые собранные в библиографии в разделе «Произведения Сабира Рустамханлы в библиотеках мира», наглядно свидетельствуют о широкой популярности его произведений в мире.

Для облегчения работы с библиографией в конце ее составлены алфавитные указатели произведений Рустамханлы и авторов, писавших о нем.

Библиография предназначена для литературоведов, исследователей, библиотекарей-библиографов и широкой общественности.

Заранее выражаем благодарность экспертам и читателям, высказавшим свои замечания и предложения по библиографическому указателю. Просим присылать свои предложения и замечания в Национальную библиотеку Азербайджана им. М.Ф.Ахундова.

Адрес: AZ-1000, Баку, ул.Хагани, 57.
E-mail: contact@anl.az

Ön söz əvəzi:
Xalq şairi Sabir Rüstəmxanlı

Müasir Azərbaycan ədəbi-ictimai fikrinin inkişafında özünə-məxsus xidmətləri olan görkəmli yaradıcı ziyalılardan biri də Sabir Rüstəmxanlıdır. Son otuz ildə milli şüurun, vətəndaşlıq poeziyası və publisistikasının, demokratik ictimai fikrin, yeni tipli ziyalı mədəniyyətinin dirçəlişi və təşəkkülü yollarındakı mücadilələrdə Sabir Rüstəmxanlının adı və imzası ardıcıl olaraq qabarıq şəkildə nəzərə çarpmışdır. Ədəbi-ictimai mühitdə o, milli ruhlu şair və alim, vətəndaş publisist və ictimai xadim kimi tanınır. Sabir Rüstəmxanlı həm də bütöv şəxsiyyəti və çoxcəhətli fəaliyyəti ilə yeni nəslin içərisindən çıxmış Azərbaycan ziyalısının canlı obrazı kimi ümumiləşir. Orta nəsil ziyalılarının keşməkeşli ömür və sənət yolu, mübarizə, çətinlik və uğurları onun timsalında cəmləşə, əks-səda tapa bilir.

Sabir Xudu oğlu Rüstəmxanlı 20 may 1946-cı ildə Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. Atası Xudu kişi İkinci Cahan savaşında iştirak etmiş, müharibədən qaytdıqdan sonra taleyini bütünlüklə doğma torpağa, halal zəhmətə bağlamışdır. “Bir əli cəbhədə əsgər, biri Yardımlıda əkinçi olmuş”, həyatın mənasını minnətsiz yaşamaqda və övladlarının pərvanəsi olmaqda görən Xudu kişinin sərtliyi, halallığı və fədakarlığı, çoxuşaqlı ailənin əzab-əziyyətini çəkməkdə “cüt qanad kimi” atanın ən etibarlı dayağına çevrilmiş, övladlarına “təmizlikdən dərs demiş” Ağanaz ananın “qaşqabaqlı istəyi” Sabir Rüstəmxanlının qəlbində “yalın ayaqların nəğməsi kimi” yaşayan unudulmaz uşaqlıq mühitinin cövhərini təşkil etmişdir. Sabir həm də “cilası torpaqdan gələn köhnə bir kotanın polad tiyəsindən” ucalan məktəb zənginin əks-sədası, habelə “dünyanın ən qədim ayini kimi əkin-biçin nəğməsi”nin xeyir-duası ilə böyümüşdür. Bunlar onun ömür və sənət yolunun əsas mənəvi özülü və bünövrəsi olmuşdur. M.F.Axundov adına Yardımlı orta məktəbini bitirdikdən sonra kəndlərinin “dünyanı qucan qolu” olan, “ən böyük yollarla qucaqlaşan”, “şaxəli ildırım kimi yerə sərilmiş” doğma kənd yolları onu Bakıdakı böyük ədəbi-ictimai mühitə qovuşdurmuşdur. Sabir Rüstəmxanlı 1963-1968-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində ali təhsil almışdır. Altmışıncı illər mühitində nəzərəçarpacaq səviyyədə dərinləşən milli proseslərin universitet mühitində özünəməxsus yer tutması, soykökə, tarixə qayıdış “dərslərinin” genişlənməsi bütövlükdə yeni nəslin, o sıradan da Sabir Rüstəmxanlının dünyagörüşünün formalaşmasının əsas faktı kimi öz işini görmüşdür.

Artıq universitet illərində Sabir Rüstəmxanlı "torpağı ot deyil, kişi göyərdən" Vətənin tarixinə, xalqın milli dəyərlərinə yaxından bələd olan, güvənən, müqəddəs adət-ənənələrimizin yaşadılması zərurətini dərindən dərk edən, "bir kənd məhəbbətinin tələsən sürəti" ilə milli varlığımızın ifadəsinə can atan ziyalı gənc kimi formalaşmışdır. Tələbəlik illərində qələmə alınmış şeirləri bədii nümunələr olmaqdan başqa, həm də şəxsiyyətin ideya-mənəvi yetkinləşməsi prosesinin təkamül notları təsiri bağışlayır. Bu mənada Sabir Rüstəmxanlının tələbə ikən yazdığı "Təbriz xiyabanı", "Yardımlı yollarında", "Müqəddəs adətlər", "Bir yol istəyirəm" və s. kimi şeirləri onun sonrakı vətəndaşlıq poeziyasının möhkəm, etibarlı təməlidir. Ali məktəb dövrünün uğurlu poetik bəhrəsi olan "Vətən" şeiri Rüstəmxanlı yaradıcılığının ilkin parolu və tutumlu bir səviyyədə proqramı kimi səslənir:

Bir əlçim buluddu,
Bir ömür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysanıdı;
21 Azərin qanıdı.
Cavadxanın qətl yeridi,
Sabirin "Fəxriyyə"şeiridi.
Dağları dumanda itən –
Vətən...,Vətən.

Hadinin şeir bazarıdı,
Füzulinin dağıdılmış məzarıdı,
Taleyin ələnən ələyidi,
Durna ləläyidi.
Araz hörüyündən
Kəmənd düşmüş Sevildi.
"Ənəlhəq" harayıdı,
Ələsgərin sazıdı,
Qədim əlyazmasıdı –
Dahilər boylanır sətirlərindən
Vətən..., Vətən.

Həyatının 1967-1978-ci illəri əhatə edən on ildən artıq bir dövrünü həsr etdiyi "Ədəbiyyat və incəsənət" qəzetindəki əməkdaşlıq mərhələsi Sabir Rüstəmxanlı üçün ikinci universitet adlanmağa layiqdir. Redaksiyada kiçik ədəbi işçi

kimi fəaliyyətə başlayan gənc ziyalının qəzetlə əməkdaşlıq edən, yaxud burada çalışan görkəmli yazıçı, şair, tənqidçi və ədəbiyyatşünaslarla səmərəli ünsiyyəti, elmi-ədəbi mübahisə və müzakirələrdə yaxından iştirakı ona ali təhsildən daha artıq bilik, məlumat və təcrübə vermişdir. Əməkdaş kimi bu nüfuzlu qəzetin səhifələrində tez-tez çap olunmaq imkanı qazanması Sabir Rüstəmxanlının respublika miqyasında tanınmasına, özünü təsdiq etməsinə şərait yaratmışdır. Onun bir çox ciddi şeirləri və publisistik yazıları məhz "Ədəbiyyat və incəsənət" qəzeti vasitəsilə ədəbi-elmi ictimaiyyətə və oxuculara çatdırılmışdır. Sabir Rüstəmxanlı bu qəzetin həmin illərdəki zəngin və maraqlı ədəbi mühitində formalaşma mərhələsini yekunlaşdırmışdır. Bu dövrdə o, sıravi əməkdaşlıqdan tənqid və ədəbiyyatşünaslıq şöbəsinin müdiri vəzifəsinə qədər yüksəliş dövrü keçmişdir. S.Rüstəmxanlı eyni zamanda Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasında qiyabi təhsil almış, 1976-cı ildə məşhur folklorşünas, professor Məhəmmədhüseyn Təhmasibin rəhbərliyi ilə "Cəlil Məmmədquluzadə ("Molla Nəsrəddin") və folklor" mövzusunda dissertasiya yazıb müdafiə edərək filologiya elmləri namizədi elmi adını almışdır. Sonralar da o, "Abbas Tufarqanlı", "Xətai möcüzəsi", "Ozan baba", "Böyük yadigar" kimi şifahi xalq ədəbiyyatına dair qiymətli məqalələr yazıb çap etdirmişdir, çoxsaylı məruzə və çıxışlarında, şeirləri və poemalarında folklor qaynaqları və ənənələrindən yaradıcı şəkildə bəhrələnmişdir.

Çap etdirdiyi şeir kitabları – "Tanımaq istəsən" (1970), "Sevgim, sevincim" (1974), "Xəbər gözləyirəm" (1979) və yaddaqalan elmi-publisistik məqalələri hələ yetmişinci illərin sonlarından etibarən Sabir Rüstəmxanlını ümumrespublika ədəbi mühitinin ön mövqelərinə çıxarmışdır. 1978-ci ildən o, Azərbaycan Yazıçılar İttifaqının üzvü kimi tanınmış yazıçılarla bir cərgədə yaradıcılıq tədbirlərinin ən fəal iştirakçılarından, bəzi məqamlarda isə təşkilatçılarından birinə çevrilmişdir. Beləliklə, onun nüfuz və tanınma dairəsi genişlənmişdir. Sabir Rüstəmxanlı gənc şairlərin beşinci (1971) və onuncu (1978) festivallarında çağdaş Azərbaycan poeziyasının yeni nəslini uğurla təmsil etmişdir. Az sonra o, iştirakçısı olduğu gənc yazıçıların yeddinci Ümumittifaq müşavirəsində (Moskva, 1981), habelə Asiya və Afrika ölkələri gənc yazıçılarının dördüncü beynəlxalq konfransında (Frunze, 1982) Azərbaycan ədəbiyyatı və mədəniyyətinin böyük təəssübkeşi kimi ciddi maraq doğurmuş, diqqət mərkəzində dayanmışdır. Bu geniş miqyaslı formalardakı uğurlu çıxışları, fəal mövqeyi Azərbaycanda Sabir Rüstəmxanlının timsalında yeni tipli, milli düşüncəli, demokratik ruhlu, yetkin vətənpərvər bir gənc yaradıcı şəxsiyyətin yetişib ərsəyə gəldiyini qabarıq şəkildə nəzərə çarpdırmışdır.

Bütövlükdə XX əsrin səksəninci illəri Sabir Rüstəmxanlı üçün ən məsuliyyətli və şərəfli dövrdür. O, hələ 1978-ci ildən çalışdığı təzə iş yerində – "Yazıçı" nəşriyyatında qısa müddətdə baş redaktor vəzifəsinə irəli çəkilmişdir. Bu və-

zifə Sabirə milli ədəbiyyat və mədəniyyətimizin dirçəldilməsinə xidmət göstərmək üçün geniş meydan açmışdır. Nəşriyyat işinin mahir bilicisi, görkəmli ziyalı, mərhum Əjdər Xanbabayevlə birlikdə o, Azərbaycan mədəniyyətinin bütün dövrlərini və ədəbiyyatımızın əsas janrlarını əhatə edən böyük bir milli elmi-ədəbi xəzinə formalaşdırmağa müvəffəq olmuşdur. "Yazıçı" nəşriyyatının müəyyən etdiyi "El ədəbiyyatı kitabxanası", "Klassik irsimizdən", "Azərbaycan klassik poeziya inciləri", "Azərbaycan romanı", "Şairin kitabxanası", "Müəllifin ilk kitabı", "Ədəbi əlaqələr", "Ədəbi portretlər", "Dünya ədəbiyyatı kitabxanası" və s. kimi seriyalar üzrə çap olunmuş kitablardan, habelə tərcümə ədəbiyyatından zəngin bir kitabxana yaratmaq mümkündür. Buradakı səmərəli fəaliyyəti həmçinin onun mətbuatla yanaşı, nəşriyyat işinin də problemlərinə, özünəməxsus incəliklərinə dərindən bələd olmasına şərait yaratmışdır. S.Rüstəmxanlı həm də vətəndaş, şair və nasir kimi tanınmışdır.

Milli-demokratik mətbuatın ilk qaranquşu olan "Azərbaycan"adlı qəzeti yaratmaq da Sabir Rüstəmxanlıya qismət olmuşdur. Qısa müddət, təxminən iki il (1989-1991) fəaliyyət göstərməsinə baxmayaraq, baş redaktorun vətəndaşlıq fəallığı, zəngin təcrübəsi və səriştəsi sayəsində "Azərbaycan" qəzeti çətin, məsuliyyətli bir mərhələdə respublikada gedən mürəkkəb ictimai proseslərə fəal təsir etmiş, əsl xalq tribunası olmaq vəzifəsini şərəflə yerinə yetirmişdir. Tariximizin milli-azadlıq hərəkatı dövründə nəşr olunan bu mətbuat orqanı yalnız "böyük ümumxalq hərəkatına güzgü tutmaqla" qalmamış, demək olar ki, çox vaxt hadisələri qabaqlamış, bütövlükdə demokratik proseslərin sağlam məcraya yön almasına, milli oyanış və dirçəlişə ciddi şəkildə təsir göstərmişdir. Sabir Rüstəmxanlının qəzetin bütün saylarına yazdığı baş məqalələr, burada çap etdirdiyi açıq məktublar və digər publisistik yazılar yeni mərhələdə milli demokratik mətbuatın təməl daşlarını təşkil edir. Tərəddüd etmədən alın açıqlığı ilə demək olar ki, Sabir Rüstəmxanlı "Azərbaycan" qəzetilə milli azadlıq mücadiləsinə, demokratik hərəkata hər hansı bir ictimai təşkilatdan çox xidmət etmişdir. Regionda geniş miqyas almış mübarizə dalğalarının əhatə dairəsini, hərəkətverici qüvvələrini, əsas fəaliyyət göstəricilərini, nöqsan və ziddiyyətlərini öyrənmək üçün də "Azərbaycan" qəzeti etibarlı mənbə sayıla bilər.

XX əsrin səksəninci illərində Sabir Rüstəmxanlı bədii yaradıcılığını da uğurla davam etdirmişdir. Bu illərdə meydana çıxmış "Gəncə qapısı" (1981), "Sağ ol, ana dilim" (1983), "Qan yaddaşı" (1986) şeir kitabları, habelə məşhur "Ömür kitabı" (1988) onu əsl vətəndaş şair səviyyəsinə yüksəltmişdir. O, artıq yeni nəsil Azərbaycan poeziyasının ən öncül şairlərindən biri kimi ad-san qazanmışdır. Bu illərdən etibarən onun adı həmçinin Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza və başqaları kimi milli ruhlu yaşlı nəsil şairləri ilə də bir cərgədə çəkilməyə başlamışdır. Sabir Rüstəmxanlı bir sıra mühüm elmi-ədəbi tədbirlərdə məruzə ilə çıxış etmək, əsas, aparıcı sözü demək, ana fikri çatdırmaq

üçün etimadnamə almışdır. Onun Azərbaycan Yazıçılarının VII, VIII və IX qurultaylarındakı, habelə bir sıra yaradıcılıq müşavirələrindəki məruzə və çıxışları geniş elmi-ədəbi dünyagörüşdən, millətin dilinə, tarixinə, mədəniyyətinə və ədəbiyyatına sadəcə bələdlikdən deyil, həm də güclü vətəndaş yanğısından yoğrulmuşdur. Sabir Rüstəmxanlının mötəbər kürsülərdən etdiyi məruzə və çıxışları ədəbi mühitdə qazanılmış uğurları göstərməklə yanaşı, həm də daha çox mövcud problemlərin, kəsir və çatışmazlıqları aşkara çıxarmaq ehtirasının bariz ifadəsidir... Lakin o, yalnız ittiham etmək, həyəcan təbili çalmaqla kifayətlənmir, ən optimal çıxış yollarını, kəsirləri aradan qaldırmaq üsullarını da görüb-göstərməyi özünün vətəndaşlıq borcu sayır. Sabir Rüstəmxanlı ədəbi-ictimai fikrimizin əsas inkişaf istiqamətlərini doğru-düzgün təsəvvür edən və həmin sahədə ən ardıcıl surətdə çalışan yaradıcı şəxsiyyətlərdən biridir. Sözlə, fikir və ideya ilə konkret əməlin vəhdəti, həqiqət duyğusunu ən ali məqama ucaltmaq onun əsas mənəvi simasını müəyyən edir. Bütün bunlar Sabir Rüstəmxanlının "Bu, sənin xalqındır" adlı kitabının (1995) iliyi, tac damarı və mayasıdır. Cəsarət, vətəndaşlıq yanğısı, milli mövqe və mənafe, mənəvi sərvətlərimizə övlad münasibəti bu kitabın əsas sarı simi, yaxud "Yanıq Kərəmi"dir. Ayrı-ayrı publisistik məqalələrindən, məruzə və çıxışlarından aşağıda gətirdiyimiz örnəklər həm Sabir Rüstəmxanlının ideya-mənəvi təkamülünün inkişaf pillələrini, həm də Rüstəmxanlı vətəndaşlığının qayəsini aydın surətdə göz önünə gətirir:

... "Vətəndaş duyğusu olmayan yerdə yazıçının fəal həyat mövqeyindən danışmaq mümkün deyil... Yazıçının mövqeyindən söhbət gedəndə mənim yadıma ilk növbədə Mirzə Cəlil və Mirzə Ələkbər Sabir düşür.

... Vətəndaşlıq – təkcə çılpaq tərənnüm, Vətən sevgisinin birbaşa izharı deyil. Vətəndaşlıq yazıçının ruhundan doğmalıdır.

Vətəndaşlıq – xalqa məxsus olan ən gözəl keyfiyyətlərin keşiyində dayanmaqdır; yazılan şeirdə bədiilik zəifdirsə, ana dili təhrif olunursa – bu, yalançı vətəndaşlıqdır".

1978-ci il.

***

"...Oxucu səsi sənətkar ömrünün dayağıdır. Bu səs xalqın səsidir. Oxucu məktublarında sadə, səmimi sözlərlə bəzən hətta tədqiqatçıların da duya bilmədiyi, yan keçdiyi həqiqətlərdən danışır. Onları bədii əsərin yaşamaq iqtidarına aydınlıq gətirən barometrə bənzətmək olar".

1978-ci il.

***

"...Hərdən öz-özümdən soruşuram: Xətai öz ömrünü kişi kimi yaşayıb getdi. Azərbaycan türkcəsini dövlət dilinə çevirdi. Onun təkbaşına bacardığı işi indi biz hamılıqda görə bilmirik. Bəs neyləyək?"

1981-ci il.

***

"...Yurdun folkloru, el sənəti, yer adları, dil tarixi – hamısı küll halında öyrənilməlidir. Təəssüf ki, burada qarışıqlıq hökm sürür. Səhvlər düzəldilmir. İctimai tariximizə və ədəbiyyat tariximizə dair yüzlərlə yanlış fikrə vaxtında cavab verilmir".

1981-ci il.

***

"Avestanın ev tikməyə, yurd salmağa, torpaq becərməyə, halal əməyə çağıran nəğmələrindən, "Dədə Qorqud"un Vətən yolunda ölümü şərəf sayan qəhrəmanlıq boylarından üzü bəri Azərbaycan bədii sözü həmişə insanlığın əbədi qayğılarından danışmış, ədalətin, düzlüyün, nəcibliyin, azad düşüncənin tərəfində dayanmışdır".

1982-ci il.

***

"...Elə adamlar var ki, onların tərcümeyi-halı respublikamızın ümumi tərcümeyi-halına çox bənzəyir, onlar öz talelərində xalqımızın tarixi inkişafının bütöv bir mərhələsinin mürəkkəbliyini və uğurlarını əks etdirirlər".

1985-ci il.

***

"...Bir dəfə Bakıda məhkəmə gedişində iştirak edirdim. Hakim azərbaycanlı, iştirakçılar azərbaycanlı, yalnız iclasçılardan biri kənar millətdən idi. Hakim məndən soruşdu ki, hansı dildə danışacaqsınız? Dedim: – Azərbaycan dilində. Dedi: Axı siz ziyalısınız, rayondan da bu gün gəlməmisiniz. Niyə rusca danışmaq istəmirsiniz? Dedim: – Elə mən ziyalı olduğuma görə də azərbaycanca danışmaq istəyirəm. ...Axı Azərbaycan dili təkcə kənddən gələnlərin dili deyil".

1985-ci il.

***

"..Təəssüf ki, qeyri-Azərbaycan məktəblərinin bəzilərində bu fənnə (Azərbaycan dilinə – İ.H.) hörmət aşılaya bilmirlər. Azərbaycan dili dərsi səthi keçirilir. Dərslə yanaşı dil də hörmətdən düşür".

1985-ci il.

***

"...İdeoloji mübarizənin sərt təzyiqi ilə bizim mədəniyyətimizi, tarix yollarımızı əyri güzgüdə göstərən, milli böyüklüyümüzü dolaşıq faktlar arxasında pərdələyən kitablar təkcə Qərbi Avropadan kükrəyib çıxmır. Belə kitablara qida verən mülahizələrə elə öz əsərlərimizdə, qəzet və jurnallarımızda rast gəlirik ki, bunun qarşısı vaxtında alınmalıdır".

1986-cı il.

***

"...İllər uzunu bizdə qəribə bir meyl müşahidə etmişəm. O şey ki, tariximizi qədimləşdirir, zənginləşdirir, o şey ki, Azərbaycan mədəniyyətinin halal malıdır, yüzlərlə müqavimətə rast gəlir. Lakin bizi xırdalayan, təhqir edən, fars, ərəb, rus imperiyalarının quyruğuna bağlayan yad, ziyanlı fikirlər özünə çox tez yol tapır".

1989-cu il.

***

"...Təəssüf ki, Moskva mətbuat orqanlarının bəzilərində Azərbaycan ədəbiyyatına laqeyd, birtərəfli, bəzən də qərəzli münasibət duyulur. Onlar Azərbaycan ədəbiyyatını az qala yazısı, ədəbiyyatı inqilabdan sonra yaranan xalqların ədəbiyyatı ilə yanaşı tutur, bəzən hətta daha az yer verirlər".

1989-cu il.

***

".. Burjua millətçisi, pantürkist, panislamist damğaları ilə haqsız güdaza getmiş bir çox qüdrətli ədiblərimiz var ki, onların əsərlərini araşdırıb... nəşr etmək vacibdir".

1990-cı il.

***

"...Son illərdə güclənən demokratik və milli azadlıq hərəkatının beşiyi başında bizim kitablarımızın dayandığını fəxrlə deməliyik. Meydanlara gedən milyonların böyük əksəriyyətinin, həm də ən şüurlu hissəsinin yolu bir vaxt ədəbiyyatımızın ehtiyatla, çəkinə-çəkinə işarə elədiyi, üstüörtülü eyhamla göstərdiyi milli ağrılardan, milli fəlakətlərin dərdindən başlanıb".

1991-ci il.

***

"..Sənət insanın böyük azadlıq ehtirasını göstərməli və bu ehtirasdan doğmalıdır".

1991-ci il.

***

"...Vətənin adına bağlanmaq, ata-ananın verdiyi ad ola-ola özünü həm də yurdun oğlu elan etmək böyük istedad və cəsarət tələb etməklə yanaşı, həm də ömürlük bir məsuliyyətdir".

1992-ci il.

***

"...Bütün ömrünü faciəli bir aldanışla qondarma ideologiyalara sərf etmiş ədəbiyyat adamları boş əllə və boş ürəklə ortada qalırlar".

Sabir Rüstəmxanlının cəsarətli çıxışları, aydın milli mövqeyi ədəbi mühitdə çox vaxt böyük, qeyri-adi əks-səda, heyrət və maraq doğurmuşdur. Xüsusən, 25 aprel 1986-cı il tarixdə Azərbaycan Yazıçılar Birliyinin növbəti qurultayı

qarşısında Natəvan adına klubda keçirilmiş yaradıcılıq müşavirəsində onun "Azərbaycan ədəbi tənqidinin vəziyyəti və vəzifələri" haqqında etdiyi məruzə elmi-ədəbi fikrimizin bu sahəsinə bənzərsiz və güzəştsiz münasibətin ciddi ifadəsi kimi rəğbətlə qarşılanmışdır. Bu məruzədə tənqid və ədəbiyyatşünaslıq mövcud cəmiyyətin və bədii fikrin, tariximizin, dilimizin və mədəniyyətimizin real, ağrılı problemləri ilə ahəngdar, əlaqədə, vəhdət halında, dərindən təhlildən keçirilmişdir. Nüfuzların, titulların illərlə formalaşdırılmış toxunulmazlıq tilsimi cəsarətlə sındırılmış, süni tərif buzları əridilmişdir. Sabir Rüstəmxanlı ədəbi tənqidin yedək gəmisinə çevrilməsinin, kəsərini, obyektivliyini itirməsinin, məddahlıq ruhunun qəti əleyhdarı kimi çıxış etmişdir. Belə cəsarətli münasibəti və mövqeyinə görə Sabir Rüstəmxanlıdan üz döndərənlərlə bərabər, onu təqdir edib qiymətləndirənlər də olmuşdur. Xəlil Rza Ulutürk kimi dönməz söz sərrafı həmin mərasimdən aldığı müsbət təəssüratları xüsusi bir şeirlə ifadə etmişdir:

Natəvan klubunda bir çıxışı dinlədik,
Qəfildən yer kürəsi silkələndi elə bil.
Əyləşsə də, elə bil, qalxdı ayağa dimdik,
Yeknəsəq natiqləri dinlərkən yatan Xəlil.

...Min dəfə gördüyümüz adicə yoldaşımız,
İndi söz kürsüsündə ucalmışdır dağ kimi.
Fikrinin alovundan neçin od tutmur kağız?
Fikir-dəmir sərkərdə, qəlbimizin hakimi.

Salonda sənət əhli-şairlər, tənqidçilər.
Cərrah kimi doğrayır, yarır tənqidimizi.
Doğru söz yanar qəlbə bəlkə sərin su çilər,
Büllur, cəsur sözüylə ovsunlayar o bizi.

...Kürsüdə bir gül qomu, - yoxsa Vətən gülzarı,
Nura dözməyib qaçan bəlkə bir yarasaydı.
Tahirzadə Sabirin od tutardı məzarı,
Yeni, kişi Sabirlər əgər yaranmasaydı.

Sabir Rüstəmxanlı xalq hərəkatına ədəbiyyatdan, özü də xalq ədəbiyyatından və milli demokratik bədii fikirdən gəlmişdir. Nəsrəddin Xoca hazırcavablığı, ayıqlığı, ədaləti və müdrikliyi, habelə tariximizə dəmir hərflərlə yazılmış Mirzə Cəlil – "Molla Nəsrəddin" cəsarəti və uzaqgörənliyi Sabirin əsas müəllimidir. O, digər qələm yaşıdları ilə birlikdə ədəbiyyatımızın XX əsrin

altmışıncı illərindəki nəsrəddinvari gerçəkçi ənənələri, milli ab-havası ilə zəruri hazırlıq dövrü keçmişdir. Həyata, millilik amilinə, sadəlik və vətəndaşlıq mövqeyinə ürəkdən köklənməsinə görə Sabir Rüstəmxanlı özü də XX əsrin yetmişinci illəri nəslinin şair Nəsrəddinidir. Onun Molla əminin "zarafatlı unutması" haqqındakı şeiri əslində şeirdə nəsrəddinçiliyin dirçəldilməsinə çağırışdır. Ulu Ələkbər Sabirin məzarı üstündəki poetik monoloq isə bugünkü xələfin böyük, ustad sələfə poetik hesabatıdır:

...Sən gedənlərdən bəri çox sular axıb,
Ömrümüz bir kökdə dayanmayıbdır.
O vaxt yatanların ayılıb çoxu
Neçəsi hələ də oyanmayıbdır.

...Durna uça-uça yatar deyirlər,
Var əl vura-vura yatanlarımız.
Kişilik adını hələ nə qədər,
Namərdlik möhrüylə satanlarımız.

...Yeyib qudurdular "zülmətsevərlər".
Xalq malı bunların arpası kimi.
Vətənin çiynindən asılıb onlar
Köhnəlmiş dilənçi torbası kimi.

və ya

Yol ver yurdun bayrağına!
Hardan qopubsa
Ora dönsün!
Özgə yerində gözü yox,
Öz elində görünsün.

Ürəkdən və sənətdən keçən ağrı-acılar, gerçəkliyin ayıq-sayıq, nəsrəddinvari dərki, oyanmış, yetkin milli şüur, sənət meydanlarından həyat, mübarizə meydanlarına gedən yollardakı keçidlərə "yaşıl işıq" yandırmışdır. XX əsrin səksəninci illərinin sonlarında Azadlıq meydanlarına Sabir Rüstəmxanlının şeirləri və "Ömür kitabı" onun özündən qabaq gəlmişdir. O, milli azadlıq hərəkatında milli ziyalılığın əsas keyfiyyətlərini, xüsusiyyətlərini uğurla sınaqdan çıxarmışdır.

Hərəkatın müvəqqəti qabarmalarının keçici şəfəqlərində azmayan və çəkilmələrində büdrəməyən, ümidsizləşməyən cavan siyasətçi ümumxalq mə-

nafeyinin ağla, məntiqi təfəkkürə, müqayisə və təhlilə əsaslanan ziyalı təmsilçisi olmağa üstünlük vermişdir. O, Azərbaycan Xalq Cəbhəsinin İdarə Heyətində də daha çox maarifçi-demokratik baxışların daşıyıcısı və aparıcısı olmaq vəzifəsini yerinə yetirmişdir. Çox vaxt həm də öz şeirləri ilə müşayiət olunan məzmunlu çıxışları pillə-pillə şəxsiyyətin bütövlüyünü təsdiqləmişdir. Sabir Rüstəmxanlı həmçinin Türkiyə, İran, Monqolustan, Misir, Almaniya, İraq, Suriya, ABŞ, Quzey Kıbrıs Türk Cümhuriyyəti, Skandinaviya ölkələri, Kanada və başqa ölkələrdəki çıxışlarında da həmişə Azərbaycan gerçəkliyini dünya xalqlarına çatdırmaq, tərəfdaşlar qazanmaq, elm və mədəniyyətimizi təbliğ etmək mövqeyində dayanmışdır. Mart hadisələrinin ildönümünə həsr olunmuş ümumrespublika toplantısındakı yaddaşlarda iz buraxan çıxışı onun şəhidlərimizin qanı bahasına qazanılmış müstəqilliyimizin qorunmasını ən uca, müqəddəs ideal saydığını bir daha sübut edir. Bütün bunlar Azərbaycan dövlətçiliyinin, milli müstəqilliyimizin qurulması və möhkəmləndirilməsinə xidmət edir. Sabir Rüstəmxanlı 1991-1995-ci illərdə Azərbaycan Respublikası Mətbuat və İnformasiya naziri kimi mühüm dövlət vəzifəsi daşımışdır. O, 1990 və 1995, 2000, 2005 və 2010-cu illərdə Azərbaycan Respublikasının Ali Sovetinə - Milli Məclisə deputat seçilmişdir.

Sabir Rüstəmxanlı Azərbaycanın ən böyük diaspora təşkilatı olan Dünya Azərbaycanlıları Konqresinin üzvüdür. Müxtəlif vaxtlarda konqresin Məclis sədri, İdarə Heyətinin üzvü və sədri olmuşdur. 2008 və 2011-ci illərdə Dünya Azərbaycanlıları Konqresinə keçirilən X və XI qurultaylarında həmsədr seçilmişdir.

Sabir Rüstəmxanlı Azərbaycan Yazıçılar Birliyinin idarə heyətinin üzvüdür. Səmərəli ədəbi-ictimai fəaliyyətinə görə müxtəlif illərdə Azərbaycan komsomolu mükafatı laureatı (1989), M.F.Axundzadə və Mirzə Cəlil mükafatları laureatı olmuş, Respublika Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatına (1990) və "Kamil sənətkar" diplomuna (1993) layiq görülmüşdür.

Adam Mitskeviçin "Krım sonetləri", Oqnen Lakiçeviçin "Tutqun hava" əsəri S.Rüstəmxanlının tərcüməsində Azərbaycan oxucusuna çatdırılmışdır. İl yarım vaxt sərf edərək böyük polyak şairi A.Mitskeviçin "Pan Tadeuş" iri həcmli poemasını böyük uğurla dilimizə çevirmiş, buna görə Polşanın Əməkdar Mədəniyyət xadimi adına və Mədəniyyət Nazirliyinin gümüş medalına layiq görülmüşdür.

Sabir Rüstəmxanlı xalqımızın milli taleyindən doğan şair – vətəndaşdır. O, "yolları Şərurda dayanan", "qəlbinin paytaxtı Kərbəlada" olan, "sədası Cənubu Şimala çatan", "ürəyinin antenaları gözəl Azərbaycan dilinə tuşlanan", çoxəsrlik mənəvi varlığımızı "qan yaddaşından" oxuyan böyük ruhlu sənətkardır. Sabirin yaradıcılığında şairlik millət və Vətən amalının poetik ifadəsi kimi

meydana çıxmışdır. Vətəndaşlıq Sabirin ömrünün və sənətinin cövhəridir. Bunlar bir-birindən ayrılmazdır. Sabir Rüstəmxanlı estetik ideal kimi, böyük Mirzə Cəlilin "Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət göstərməkdir", kimi vətəndaşlıq andına söykəndiyini dəfələrlə nəzərə çarpdırmışdır. Bütün bunları onun ömür və sənət yolu da təsdiq etməkdədir. XX əsrin səksəninci illərinin ortalarında yazılmış ədəbi-ictimai mühitdə hadisə, qızlarımızın cehizlik kitabı kimi qarşılanmış "Ömür kitabı" əsəri, müəllifin özünün etiraf etdiyi kimi, "Ömürdən keçən Vətən"in, milli taleyin bədii-publisistik dərkidir. Sabir Rüstəmxanlının əsərlərini oxuduqca müəlliflə birlikdə oxucu da aşkar hiss edir ki, "neçə min illik yolu, təcrübəsi, dərdi, qələbə və itkiləri ilə Vətən bizim içimizdən, ömrümüzdən keçir".

Bu mənada təkcə "Ömür kitabı", yaxud "Cavadxan" poeması yox, vətəndaş şair-publisistin bütöv yaradıcılığı "yazılmamış tarixin, açılmamış şöhrətin" bağrında yaşayan "Azərbaycan ürəyindən" doğmuşdur. Sabir Rüstəmxanlı "ana dilinin keşikçi"si, ana yurdun dərk edilmiş tale kitabının söz əsgəridir. Onun yaradıcılığı çox geniş, böyük, bütöv, sərhədsiz Vətənin bənzərsiz bədii tərcümeyi-halıdır:

Hardan tapacaqsan sərhədlərini,
Əmrahın sazından keçirsə əgər.
Dərbənddə Pərvanə adlanan qızın,
Çağlayan gözündən keçirsə əgər.
Qitələr dolanan didərginlərin,
Yolundan, izindən keçirsə əgər.
Şumerdən adlayan on minil yaşlı
Ölümsüz bir dilin söz qatlarından
Nənə kəlməsindən keçirsə əgər...

Müşahidələrdən aydın olurki, Sabir Rüstəmxanlının şeirlərində forma baxımından poetik varisliyin qorunub saxlanması məlum forma biçimlərində yeni, obrazlı fikirlərin təzahürünə şərait yaratmışdır. Qoşma-gəraylı formasında, yaxud çarpaz qafiyə biçimində yazılmış bədii nümunələrdə fikirlərin və təsir vasitələrinin təzəliyi buna sübutdur. Aşağıdakı şeir parçalarına diqqət yetirək:

O anaydı – göydən gələn qar dənəsi,
O ataydı – ömrümüzün pərvanəsi,
Yol gedirik, ürək yollar divanəsi,
Ürəyimin ağrısına qar yağırdı.

Və yaxud:

Qara pəncərələr – tutqun baxışlar,
Yaxının, uzağın görkəmi birdi.
Zavod boruları – nəhəng palıdlar,
İldırım vurmuşdu, tüstülənirdi.

Ənənəvi üslub hüdudunda yeni fikir və bənzətmələrin təqdimi tədricən Sabir Rüstəmxanlının orijinal üslubunun təsdiqi ilə nəticələnmişdir. Fikrin obrazlı və cəsarətli poetik ifadəsi onun şeirlərinin fərdi simasını müəyyən etmişdir. Obrazlılıq şairliyi, cəsarət vətəndaşlıq yanğısını mənalandırmışdır. Bu iki poetik əlamətin vəhdəti Sabir Rüstəmxanlıya məxsus vətəndaşlıq poeziyasını şərtləndirmişdir. "Salam, Gəncə qapısı", "Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub", "Kəhər at və səadət haqqında əfsanə", "Sağ ol, ana dilim", "Şair heykəlləri", "Azərbaycan ürəyi", "Ruhumuz sərhədsiz olduğu üçün", "Qan yaddaşı", "Yadlıq", "Tonqal iyi", "Ölində bayrağa bükülmürəmsə", "Bu adi millət deyil" və s. kimi şeirlər təkcə Sabir Rüstəmxanlı yaradıcılığında deyil, bütövlükdə milli bədii təfəkkürdə yeni abhavanın, vətəndaşlıqla səmimiyyətin və obrazlılığın vəhdətinin nəticəsi kimi təzahür etmişdir. Bədiilik bu qəbildən olan şeirlərin sənət dəyərini, cəsarət isə ictimai faydalılığını müəyyən etmişdir. Görkəmli fırça ustası Səttar Bəhlulzadənin adına "Xutorun yarıuçuq evləri arasında", "Boyu adından gödək" olan bir küçənin verilməsinə yönəldilmiş poetik etiraznamədən ibarət olan "Şəhər sovetinə açıq məktub"da ustad sənətkarın qədr-qiyməti lirik düşüncələr vasitəsilə bir daha nəzərə çarpdırılmışdır. Vətəndaşlıq isə fikrin şeirin yazıldığı 1978-ci il üçün cəsarət tələb edən təqdimində özünə məna tapmışdır.

Sabir Rüstəmxanlı oğurlanıb Gürcüstanın Kutaisi şəhəri yaxınlığındakı Gelati monastırında saxlanan qədim Gəncə qapısından da qeyrətlə, vətəndaşlıq duyğusu ilə söz açır. O, həmin qapının oğurlanıb aparılmasına o vaxt "Vətən" boyda bazarın sahibsizliyinin nəticəsi kimi baxır. "Füzuli eşqindən divanə" olan, tarixin min keşməkeşindən, sərt sınaqlarından uğurla çıxan ana dilimiz "ordular sırasından" qəhrəmanlıq timsalı kimi vəsf olunur. O, hələ neçə illər qabaq irəlidəki faciələri görürmüş kimi "dağların başında Ələsgər kimi bizdən uzaq düşmüş bir küsülü"nün yanıqlı fəryadını poeziyanın sarı simi üstə dilləndirmişdir. Sabir "boyat mahnılarla" zehinləri, zövqləri korlayan "bəstəkar oğlanla" da sərt danışır. Mahnılarında "yurdun ucalığını özünün və sənətinin xırdalığını nümayiş etdirən, Odlar diyarını soyuq mahnılarla nota çəkən, bəstələrində daha çox "gözündən yaş axıdan" belə sənətçilərin mənəvi kasadlığı oxucuya çatdırılmışdır. Şair haqlı olaraq belə qənaətdədir ki, "görüşə səsləyən mahnıyla birgə döyüşə səsləyən mahnı da gərəkdir". Onun fikrincə, "təzə mahnıların ucalığından yurdun ucalığı görünməlidir". Sabir Rüstəmxanlı neçə illərdir ki, doğma yurdun və yurddaşların ucalıq və paklığını tərənnüm

etməkdədir. Bu, bir şeirində deyildiyi kimi "Vətənə xidmətdir ən böyük sənət" qənaətini təsdiqləyir.

Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, Sabir Rüstəmxanlının poeziyası itaətkar, ikiüzlü sənət deyildir. Əksinə, bu poeziyada qürur, mərdanəlik, fədakarlıq, bütövlük, barışmazlıq ön cəbhədədir. O, sözünü, fikrini şax deməyi bacarır: "Sallanıb vəzifə budaqlarından yatırlar, kor olmuş yarasadırlar. Qeyrətli söz çıxmaz dodaqlarından. Söz düşsə arvaddan Araza qədər". Bütün bunlara görədir ki, Sabir Rüstəmxanlının poetik qəhrəmanı "başını aşağı sal, işini gör" fəlsəfəsi ilə barışa bilmir. Həmin məsləhət onun şeirlərində "kiflənmiş əxlaq dərsi" hesab olunur, "Ürək yeyən bir ətalət qurdu" sayılır. Sabir Rüstəmxanlının fikrincə, baş verən ciddi ictimai-siyasi hadisələrin təsirilə dirilən – "qan yaddaşımız", ölən – qorxumuzdur.

XX əsrin doxsanıncı illərinin astanasından etibarən S.Rüstəmxanlının yaradıcılığında keyfiyyətcə yeni mərhələ başlamışdır. İctimai həyatdakı sərt dönüşlər, milli azadlıq hərəkatı, demokratik islahatlar bu hərəkatın içində olan şairin əvvəllər ehtiyatlı pıçıltı ilə söyləyə bildiyi mətləbləri daha açıq və cəsarətlə deməsinə zəmin yaratmışdır. Bir müddət onun şeirlərini qaranlıqları parçalayan "tonqal iyi" bürümüşdür. Daha o, "xanımtək ətirlənən", "yaraya məlhəm" olmayan sığallı sözləri məqbul saymır. Onun fikrincə, təkcə ayrı-ayrı şeirlər deyil, bütövlükdə şairlər "döyüş himni" kimi doğulmalıdırlar. "Tonqal iyi", "AXC cəfakeşlərinə", "Yadlıq", "Mahnımdan qan iyi gəlmirsə əgər" və s. şeirlər müstəqillik və azadlıq ab-havasının şəfəqlərinə inanan şairin vətəndaşlıq andı kimi meydana çıxmışdır. "Öləndə bayrağa bükülmürəmsə, beş arşın təmiz ağ kəfənim deyil" – intibahı bu qəbildən olan şeirlərin məntiqi yekunudur.

Bununla belə, Sabir Rüstəmxanlının özü və şeirləri də son illərin hərəkat və çarpışmalarının təkcə "sülh şəfəqlərinin" deyil, ziddiyyət və çətinliklərinin içərisindən keçib gəlmişdir. XX əsrin doxsanıncı illərinin başlanğıcından etibarən ictimai hərəkatın mürəkkəblikləri, bəzən ali duyğuları "xırda oyunların" əvəz etməsi, Qarabağ savaşındakı uğursuzluqlar, "Özgənin havasını çaldıranların" məkrli fəaliyyəti, vəzifə ehtiraslarının qızışması Sabir Rüstəmxanlının şeirlərinin döyüşkən ruhunu müəyyən qədər sarsıtmışdır. "Aydın Məmmədovun dəfn günündə", "Yazılmamış şeirlərin ağrısı", "Təkcə özümə gücüm çatır", "Mənim nəğmələrim hamının deyil", "Xocalıya mərsiyə", "Xocalıdan sonra", "Mən demədim" və s. şeirlərin mayasına acı təəssüf, iztirab və kövrəklik ruhu hopmuşdur. Xüsusən, XX əsrin doxsanıncı illərinin əvvəllərində müharibə cəbhələrindəki faciə və fəlakətlər. Vətən torpaqlarının əldən getməsi, mənəviyyatda baş verən böhranlar, nəticə etibarilə "kişiliyin cırlaşması" dərin təəssüflərin poetik ifadəsinə gətirib çıxarmışdır. Bu məqamda "şimşək işığını" artıq "ölümdən betər xəcalət" əvəz edir. Buna görə də, şairin "Xocalıdan sonra özümdən zəhləm gedir" – etirafı bütövlükdə XX əsrin doxsanıncı illərinin əvvəllərindəki

və indiki əhvali-ruhiyyəni dolğun ifadə edir: "Düşmən bu torpağı ayaqlamazdı, kötək yeməsəydik öz əlimizdən". Yaxud: "Başqasına cavab vermək asandır, Allah bizi özümüzdən qorusun". Nəhayət, həmin mürəkkəblik və uğursuzluqların əks-sədası az qala Sabir Rüstəmxanlının özünün XX əsrin səksəninci illərinin sonlarında yazılmış ümid dolu şeirlərinə müxalifətdə dayanan fikir və düşüncələrindən yoğrulmuş "Siz nə umursunuz bu gedişatdan" (1992) şeirini dünyaya gətirmişdir:

Bizi qananlardan bizi danan çox,
Xırda oyunlarda xırdalanan çox,
İş görən tək-təkdi, qurdalanan çox,
Siz nə umursunuz bu gedişatdan?!
...İstər fitnə göyərt, istər toxum ək,
İstər dərd bağışla, istərsə ürək.
Ağız-ağızayıq ac canavartək,
Siz nə umursunuz bu gedişatdan?!

Şeirin ictimai mahiyyət kəsb etdiyi belə məqamlarda Sabir Rüstəmxanlı poeziyasına publisistik notlar daxil olur. İlk baxışda lirika ilə publisistikanın yanaşı işlədilməsi qəribə görünür. Əslində lirikada publisistik notların olması şairin şeirlərinin müasirlik və aktuallığına meydan açmışdır. Öncəki kitablarında "açıq məktub" janrlarında yazılmış şeirlər "Ana abidəsinə məktub", "Ananın gəlininə məktubu", "Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub" və s. mövzunun müasirlik imkanlarını açmağa şərait yaratmışdır. Şair, hətta dövri mətbuatda olduğu kimi "açıq məktublarının" nəticəsi ilə də maraqlanmış, yenidən yazdıqlarına qayıtmışdır. "Səttar Bəhlulzadə haqqında şəhər sovetinə açıq məktub"dan bir qədər sonra yazılmış "Şəhər sovetinə ikinci məktub"da "şəhər yiyəsi"nin diqqəti şəhərsalmanın müasir problemlərinə yönəldilmişdir. Bu şeirlərdə publisistik əlamətlər bədii nümunənin vətəndaşlıq kəsərini qüvvətləndirməyə xidmət göstərmişdir.

Xatirə ("Xatirə qatarı", "20 yanvar xatirəsi"), əfsanə ("Kəhər at və səadət haqqında əfsanə", "Səməd Behrəngi əfsanəsi") kimi şeirdən çox nəsrə, publisistikaya xas olan janrlarda S.Rüstəmxanlının poetik söz deməsi də əsasən lirika ilə publisistikanın imkanlarını bir məcrada cəmləşdirmək bacarığından əmələ gəlmişdir. Bundan başqa, S.Rüstəmxanlının səfərnamə janrında artıq bir kitablıq qədər silsilə şeirlər yazması (Fransa, Türkiyə, Polşa, Bolqarıstan, Monqolustan, Peredelkino, Altay, Krım, Səmərqənd, Dərbənd, Pribaltika şeirləri) da onun şairlik və publisistliyin orta məxrəcini tapa bilməsindən irəli gəlmişdir. Əslində səfər təəssüratları mövzusunda yazılmış bədii nümunələr

S.Rüstəmxanlının şah əsəri olan "Ömür kitabı"nın meydana çıxması üçün baş məşq rolunu oynamışdır.

"Ömür kitab" əsəri anamız Azərbaycanın sanballı publisistik poetik dastanıdır. Bu əsər Azərbaycan ədəbiyyatının özünəməxsus "Mənim Dağıstanım"ıdır. Bu əsərdə publisistik başlanğıc aparıcılıq təşkil edir. Lakin S.Rüstəmxanlı "Ömür kitabı"nda publisistikaya mənsur şeir notları daxil etmişdir. Hətta kitab boyu dastanlarda olduğu kimi şeirlə nəsr və publisistika növbələşmişdir. Nəticədə publisistik kitab yüksək emosional səviyyəyə, kamil bədii əsər mərtəbəsinə qaldırılmışdır. Buna görədir ki, "Ömür kitabı" ədəbiyyatımızdakı "Azərbaycanın ana kitablarının – "Anamın kitabı" (Cəlil Məmmədquluzadə), "Atamın kitabı" (Məmməd Araz) kimi şah əsərlərin layiqli varisi olmaq səlahiyyəti qazanmışdır.

Publisistika əlamətləri Sabir Rüstəmxanlının poemalarında da aktuallıq, vətəndaşlıq və müasirliyin meydanını genişləndirmişdir. Bədiilik poemalarda publisistik notları epiklik səviyyəsinə qaldırmışdır. Bu yolla Sabir Rüstəmxanlı "Bütövlük" (1978) poeması vasitəsilə istiqlaliyyəti uğrunda mübarizə aparan Vyetnam xalqının timsalında ikiyə bölünmüş, parçalanmış xalqların qovuşmaq arzusunu ümumiləşdirə bilmişdir. Cənubi Azərbaycan mövzusunda yazılmış poemalarda – "Azərbaycan irticası" (1976), "Hər kəs günəşi sevsə" (1983), "Vətənsiz" (1985) əsərlərində ciddi ictimai məzmun və milli-bəşəri ideyalarla yanaşı, xalqımızın qarşılaşdığı ədalətsizliklər və bütün bunlardan doğan ibrət dərsləri yüksək poetik vüsətlə təqdim edilir. Bu cəhət lirik notlar üstə köklənmiş "İşıq ömrü" poemasında (1973) sənət fədaisi Hüseyn Ərəblinskinin, Cavadxan əsərində Vətən və millət fədaisi Cavadxanın dolğun obrazının canlandırılmasına səbəb olmuşdur. S.Rüstəmxanlı yaradıcılığında nəzərəçarpan poema-monoloq forması ("Didərginlər" poeması – 1978) da lirik və epik-publisist xüsusiyyətlərin vahid məcrada birləşməsinin uğurlu nəticəsidir. Bütün bunlara görə şairin poemaları milli ruhlu düşüncə-monoloqlarla təsirli hadisələrin üzvi vəhdətindən yoğrulmuşdur.

Bununla yanaşı, hətta publisistikanın birincilik qazandığı hallarda da Sabir Rüstəmxanlı ilk növbədə şairdir. Yəni lirik başlanğıc onun çoxsahəli elmi-publisistik və bədii yaradıcılığının cövhərini təşkil edir. İnsanın köks qəfəsi altında xəbərsiz-xəbərsiz çağlayan, hamının görüb mənalandıra bilmədiyi dilsiz özünəməxsus təsvir və ifadə vasitələrindən istifadə Sabirin şeirləri üçün səciyyəvidir. "Köhnə havalar üstə" silsiləsinə daxil edilmiş bədii nümunələr əslində lirik poeziyamızın təzə və orijinal nümunələridir. Şair bu silsilə vasitəsilə "təzə dərdini köhnə havalar üstə" deyəcəyini bəyan etsə də, lirikaya təzə fikirlər və məcazlar gətirməyə müvəffəq ola bilmişdir. "Göz yaşın – bir yaşıl tumurcuq", "dünya lüt-üryan" hökmdardır, bardaş qurub var üstə və s. kimi misralar yalnız Rüstəmxanlıya məxsusdur. Ümumiyyətlə isə ardıcıl olaraq

təzə fikir demək və yeni bənzətmələrlə danışmaq meyli onun poeziyasının təkmilləşmə cəhdini əks etdirir, bu poeziyaya bulaq suyu kimi təmizlik, duruluq, aydınlıq gətirir. Son illərdə yaranmış "Kişi ömrü", "Arxamca su səpdi Vətən", "Qarşı yatan qarlı dağlar", "İçimdəki dərd ocağı" şeir silsilələri artıq "köhnə havalar üstə" köklənmiş sənətin yenilik, özünəməxsusluq mərtəbəsində olduğunu sübuta yetirmişdir. Bu mənada "Qan yaddaşı" (1986) kitabı yalnız Sabir Rüstəmxanlı yaradıcılığının yox, bütövlükdə XX əsrin səksəninci illəri milli Azərbaycan poeziyasının əsas nailiyyətlərindən biridir. Həmin kitab təkcə tarixi yaddaşın poetik təsdiqi deyildir; tarixiliklə müasirliyin vəhdətidir, daha çox tarixə söykənməklə bu günün şeirinin sarı simi dilə gətirməyinin uğurlu ifadəsidir.

Şair bütövlükdə yarım əsrlik ömür yoluna "Zaman məndən keçir" kitabı ilə yekun vurmuşdur. Eyni adlı şeir əslində şair ömrü və sənətinin yetkinlik, kamillik səviyyəsini nümayiş etdirir. Bu isə həm də qarşıdakı yeni mərhələnin – dərk olunmuş həyat və sənət dövrünün poetik proqnozu, yaxud proloqu kimi də səslənir:

Zaman məndən keçir, keçir durulur,
Ürəyim əbədi sevgi süzgəci.
Sevgi ürəyimdən keçir durulur.

...Nəyi saxlamadım, nəyi saxladım? –
Dəyir sınaqların zərbəsi mənə.
Keçirdim tarixi əsəblərimdən,
Dünənlə sabahın körpüsü mənəm!

...Keçir ürəyimdən millətin ruhu.
Bir üzü ucalıq, bir üzü qorxu...

Belə düşüncələr yeni mərhələdə S.Rüstəmxanlı yaradıcılığından ələrin poetik süzgəcdən keçiriləcəyindən xəbər verir.

Poeziya poetik rənglərin ölçülü-biçili mücəssəməsidir. Şairlər rənglərin harmoniyasını ilhamın qanadlarında sənətə gətirənlərdir. Xalq şairi Səməd Vurğunun şairlərimizin "Hər gülə, çiçəyə təzə ad verməsi" barədəki ilhamlı misralarında bu mətləb öz əksini tapmışdır. Bununla belə, müşahidələr göstərir ki, hər şairin sevib-seçdiyi, daha çox müraciət etdiyi rənglər vardır. Digər rənglərə də etinasız olmayan Sabir Rüstəmxanlının şeirlərində ağ rəngdən və onun çalarlarından istifadə etmək meyli güclüdür. Şair ağ rəngin məna və məcazilik imkanlarından faydalanmaqla yeni mətləblər ifadə etməyə müvəffəq olmuşdur. "Alaçıqlar – ağ göbələk" qəbilindən olan bənzətmələr ağ rəngdən

yeni məcaz yaratmaq meylinin uğurlu nəticəsini göstərir. Müxtəlif şeirlərdəki "Ağ xatirə", "Ağ işıq", "Ağ daşlı ocaq", "Ağ dünya" kimi epitetlər Sabirin lirikasına bəyaz bir görkəm vermişdir. O, ağ rəngin müxtəlif çalarlarını ifadə edən qar, süd, səhər, işıq, duman, un, ay işığı tipli sözlərlə də şeirlərindəki aydınlığı daha da qüvvətləndirmişdir. Sabir Rüstəmxanlı ağ rəngə bəzən o qədər aludə olur ki, hətta lirik qəhrəmanı "qəlbi baharlı Qar qız" biçimində özünü isə "ilin Şaxta babası", "havada yellənən qar dənəsi" şəklində görür. Onun qəlbi də, təbi də şeiri, fikri kimi ağappaqdır:

Ağ idi qar altda titrəyən güllər.
Dünyaya boylanan qəlbim ağ idi.
Dağların səbrindən axıb tökülən,
Yazbaşı sellərtək təbim ağ idi.

Sabir Rüstəmxanlı sənətdədə, həyatdada, milli mücadilə hərəkatındada özünün etiraf etdiyi kimi "bəyaz axına" qoşulmuşdur. Şairin fikrincə, "tarix küləklərinin hardan-hara əsdiyini duyan" ədəbiyyat ilk növbədə xalqı qaranlıqdan işığa, əsarətdən ağ günə çıxarmağa bələdçi olmalıdır. Sabir Rüstəmxanlı öz yaradıcılığı və mübarizəsi ilə buna xidmət etmişdir. Bundan başqa, Sabir Rüstəmxanlı yaradıcılığında ağ rəng təkcə şeirin romantik örpəyi deyildir, həm də şair ideallarının, arzularının rəngidir. Nəticə etibarilə bəyaz rəng mübarizə ruhlu vətəndaş şairin ictimai həyatda və sənətdə apardığı çətin və inadlı mübarizənin nikbin finalının ifadəsidir:

Qar yağır... Ağ yollar qalır qar altda,
Qar yağır... İzləri itirəcəkdir.
Arzu da beləcə ağdır həyatda,
Bizi ağ günlərə yetirəcəkdir.

Qar yağır, heç yana tələsmə, ürək,
Ömrün ilki də ağ, sonu da ağdır.
Bu qış ağrısına tablaya bilsək,
Yəqin bəxtimiz də ağaracaqdır.

Sözün həqiqi mənasında Sabir Rüstəmxanlının yaradıcılığı mənsub olduğu xalqın milli taleyinin keşməkeşlərinin, qan yaddaşının poetik daşıyıcısıdır. Onun özü də, sənəti də çoxlu "qış ağrılarına" tab gətirməli olmuşdur. Lakin o, bütün çətin, ağır sınaqlardan alnıaçıq, üzü ağ çıxmışdır. Bütövlükdə xalqın taleyinin ağ günə çıxması, "bəxtinin ağarması" yollarında Sabir Rüstəmxanlı poeziyası həmişə sonu olmayan poetik səfərdə, mübariz keşikdədir.

Milli ədəbiyyatın və ictimai fikrin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 21 may 1996-cı il tarixli fərmanı ilə Sabir Rüstəmxanlıya "Şöhrət" ordeni verilmişdir. Mirzə Fətəli Axundzadə adına Opera və Balet teatrında Sabir Rüstəmxanlının 50 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir. Yubiley gecəsini Millət vəkili, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar idarə etmişdir. Prezident aparatı Humanitar siyasət şöbəsinin müdiri, professor Fatma xanım Abdullazadə Azərbaycan Respublikası Prezidentinin Sabir Rüstəmxanlıya təbrik məktubunu oxumuşdur. AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru İsa Həbibbəyli yubilyarın həyatı və yaradıcılığı barədə məruzə etmişdir. Xalq şairi Qabil, S.Rüstəmxanlının qələm dostlarından Çingiz Əlioğlu, Nüsrət Kəsəmənli ürək sözlərini söyləmişlər.

Yubiley gecəsində Azərbaycan dövlətinin rəhbəri Heydər Əliyev, elm və mədəniyyət xadimləri, siyasi patiyaların nümayəndələri və şairin çoxsaylı pərəstişkarları iştirak edirdilər.

***

Şair və publisist qələmi Sabir Rüstəmxanlını yaradıcılığının son mərhələsində həm də nəsrə üz tutmağa doğru addımlar atmışdır. Biri digərini əvəzləyən "Xətai yurdu", "Göy Tanrı", "Ölüm Zirvəsi (Cavad xan)", "Difai Fədailəri", "Şair və şər" kimi tarixi, "Atamın ruhu", "Sunami", "Akademikin son əsəri" kimi müasir romanları yazıçının nasir istedadını da bütün parlaqlığı ilə ortaya qoydu. Tarixi romanlarında Sabir Rüstəmxanlı millətimizin tarixinin ən qədim dövrlərindən XX əsrəcən keçdiyi yolu vərəqləyir, taleyönümlü dönüş nöqtələrinə işıq salmaqla böyük maarifçilik missiyasını həyata keçirir.

"Göy Tanrı" romanında (2005) yazıçı qədim türk tarixinin mifoloji-epos dövrünə müraciət etmiş, Oğuz xanın qəhrəmanlıq salnaməsi əsasında dövlətçilik tarixini, oğuzların yaşam tərzini, adət-ənənə və mərasimlərini, mənəvi-əxlaqi dünyasını müasir oxucu üçün yenidən kəşf etmişdir. Romanda yazıçının əldə etdiyi daha böyük uğur milli dilə münasibət məsələsidir. Müəllif qarşısına məqsəd qoyaraq, türkün islamdan öncəki xarakteri və həyatından söz açan romanda yalnız əsli türk sözlərindən bəhrələnmiş, sonrakı dövrdə alınmış kəlmələrə az müraciət etmişdir. Tarixi romançılıqda bu, böyük ustalıq tələb edən yeni addımdır.

"Ölüm zirvəsi" romanı (2007) xalqımızın tarixinə adı şərəf imzası kimi yazılmış Gəncə xanı Cavad xanın hakimiyyəti, rus çarizminə qarşı mübarizəsi, Gəncənin müdafiəsi naminə qəhrəmancasına vuruşması və ölümündən söz açır. Roman sanki milli müstəqilliyin açarını – tarixi hünər və Vətən uğrunda şəhid olmağın zirvəsini müasir oxucuya tanıdır. Cavad xan əsərdə müstəqil olmaq,

tarixən Azərbaycana məxsus olan torpaqların Azərbaycan olaraq qalmasının tərəfdarıdır. O, torpaqları xoşluqla, vuruşmadan düşmənə təhvil verməyi namus və şərəfdən kənar hesab edir. Romanda baş verən tarixi hadisələr eyni zamanda 1990-cı illərdə, müasir dövrdə müstəqil Azərbaycan ətrafında cərəyan edən hadisələri də dərk etməyə kömək edir. Heç təsadüfi deyildir ki, roman əsasında S.Rüstəmxanlının ssenarisi ilə "Cavad xan" filmi (2009) çəkilmiş və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdır.

Sabir Rüstəmxanlının "Difai fədailəri" romanı (2010) milli istiqlal hərəkatımızın görkəmli siması Əhməd Ağaoğlunun həyatı və mübarizəsi tarixindən bəhs edir. Ötən əsrin əvvəllərində erməni fitnəkarlarının törətdiyi müsəlman qırğınının qarşısını almaq üçün Ə.Ağaoğlunun məsləkdaşları ilə birgə Gəncədə yaratdığı və tezliklə bütün Qafqaz türklərinin istinadgahına çevrilmiş "Difai" təşkilatının meydana gəlməsi, fəaliyyəti və tarixi hünəri romanda təfərrüatı ilə və parlaq surətdə əksini tapmışdır. Roman "bəlgəsəl" – sənədli romandır, tarixi faktlara, arxiv materiallarına söykənir. Yalnız Əhməd Ağaoğlunun deyil, o dövrün tarixi simalarının – Əli bəy Hüseynzadənin, Əlimərdan bəy Topçubaşovun, Hacı Zeynalabdin Tağıyevin, Məhəmməd Əmin Rəsulzadənin və b. tarixi şəxsiyyətlərin obrazları milli istiqlal hərakatını yaxından görməyə, izləməyə imkan verir. Ümumən "Difai" hərəkatında iştirak etmiş onlarla tarixi şəxsiyyətlərin adı ilk dəfə bu romanda keçir. Axund Məhəmməd Pişnamazzadə, Ələkbər bəy Rəfibəyli, Ələsgər bəy Xasməmmədli, Adil xan Ziyadxanlı, Nəsib bəy Usubbəyli, Hacı Məmmədhüseyn Əlioğlu, Hacı Mirqasım Həmzəyev, Mirzə Məhəmməd Axundlu, Muxtar və Cavad Qazıbəylilər, Məşhədi Əlihacı Məmmədhüseyn oğlu Rəfibəyli, Ələkbər Xasməmmədli, Həmid bəy Usubbəyli, Xosrov bəy, Abbas Vəzirov, Kərim bəy Mehmandarov, İsa bəy Aşurbəyli, Behbud Cavanşirli, Qarabəy Qarabəyli, Niftalı bəy Behbudlu, Məhəmməd Hacınski, Səttar Axundlu, Mirzə Ələkbər Axundlu və başqalarını göstərmək olar.

"Difai fədailəri" romanı erməni-müsəlman qarşıdurmasına işıq salmaqla bugünkü Qarabağ müharibəsinin tarixi köklərini yaxından görməyə, dərindən izləməyə də imkan verir. Difainin bir qolu olaraq Qarabağı Müdafiə Komitəsi fəaliyyət göstərmiş, tez bir zamanda özünümüdafiəni təşkil etmiş, gücə qarşı güc, terrora qarşı cavab əzmi ilə heç cür yola gəlmək istəməyən erməni millətçilərini susdura bilmişdir. Difainin nümunəsi – həm çarizmlə aparılan diplomatik danışıqlar yolu ilə, həm də başlıca olaraq döyüş yolu ilə mübarizə aparması müstəqil Azərbaycanın müqəddəs Qarabağ savaşı üçün də bir örnəkdir.

Romanda Əhməd Ağaoğlunun parlaq obrazı yaradılmışdır. Bir türk və bir insan olaraq keçdiyi həyat yolu vərəqlənmiş, xalqının, millətinin düşünən başı olaraq Difaiyə gətirən mövqeyi əsaslı şəkildə əks olunmuşdur. Parisin məşhur

Sorbonna Universitetində bir şərqşünas kimi elmi fəaliyyətini dayandırıb, çarizmin məngənəsində inləyən xalqının harayına yetməsi, uşaq yaşlarından təzyiqini duyduğu milli şovinizmə qarşı milləti səfərbər etməsi tarixi faktlara uyğun olduğu kimi, yazıçı qələmində daha da ecazkar təsvirini tapmışdır. Millət fədailiyini fədai olmadan qələmə almaq çətindir. Ə.Ağaoğlu obrazının uğurunda S.Rüstəmxanlının özünün də milli müstəqillik hərəkatında tarixi iştirakının izləri görünür.

Ümumən, Sabir Rüstəmxanlı tarixi mövzulara müasirliyin işığında nəzər yetirməyi, bu gün aktual olan problemlərin milli tarixdə cavablarını axtarmağı bacarır. "Şair və şər" (2015) əsərinin janrını müəllif "düşüncələr romanı" kimi qeyd etmişdir. Böyük Azərbaycan şairi Məhəmməd Hadinin həyatı Sabir Rüstəmxanlını həmişə düşündürmüş, poeziyasında şairin obrazına geniş yer vermişdir. Romanda ilk dəfə olaraq Şairin həyatı zülmət içində, əbədi Şərlə mübarizələrdə vərəqlənmişdir. Şairin parlaq şəxsiyyəti və işıqlı şeirləri sanki bir nurdur, millətinin yoluna işıq saçır, xalqının həmin zülmət içərisindən çıxmasına əsl mayak kimi yol göstərir. Məhəmməd Hadinin bütün bioqrafiyası, Şamaxıda, Bakıda və Hacıtərxanda maarifçilik fəaliyyəti, qəzetçiliyi və poetik yaradıcılığı romanda təfərrüatlı şəkildə diqqət mərkəzindədir. Hadinin ağır taleyi, düşündürücü hadisələr və mənəvi şücaəti müəllif tərəfindən təhlil olunmaqla Şairin obrazını böyük sevgi ilə müasir oxucuya yaxınlaşdıra bilir. Təbii ki, Məhəmməd Hadi kimi Vətən, Millət eşqi ilə yaşayan, xalqının azadlığı, istiqlalı yolunda cəfalardan usanmayan şairin obrazını yaratmaq üçün yazıçı olmaqdan əlavə həm də şair olmalısan. Sabir Rüstəmxanlının yaradıcılığında hər iki keyfiyyət birləşir, bu isə bütövlükdə romanın uğurunu təmin edir.

Sabir Rüstəmxanlının nəsr yaradıcılığı millətinin şəninə yazılmış, müstəqil Azərbaycanın taleyindən bəhs edən əsl bir tarixnamədir. Bu yolun başlanğıcında əfsanəvi Oğuz xan durursa, davamında Şah İsmayıl Xətai, Cavad xan, Əhməd Ağaoğlu, Məhəmməd Hadi, o cümlədən Sabir Rüstəmxanlı kimi Azərbaycan oğulları gəlir.

Sanki hesabat səciyyəsi daşıyan "Əbədi sevda" adlı şeir və poemalardan ibarət toplusu (Bakı, 2012) Sabir Rüstəmxanlının şərəfli ömür yolunun poetik salnaməsi kimi səslənir.

***

Azərbaycan tənqid və ədəbiyyatşünaslığı Sabir Rüstəmxanlının yaradıcılığını yüksək qiymətləndirmişdir. Səmərəli ədəbi-ictimai xidmətlərinə görə o, ədəbiyyatımızın son dövrlərinin aparıcı nümayəndələrindən biri hesab edilmişdir. Elmi-ədəbi fikrimiz onun milli şüurun və xəlqi ədəbiyyatın inkişa-

fındakı rolunu dəyərləndirməyə üstünlük vermişdir. S.Rüstəmxanlı haqqında zəmanəmizin böyük söz və təfəkkür sahibləri: Anar, Bəkir Nəbiyev, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Yaşar Qarayev, İsmayıl Şıxlı və b.– ları yüksək fikirlər söyləmişlər.

Sabir Rüstəmxanlı yeni dövr Azərbaycan ədəbiyyatında vətəndaşlıq poeziyasının, kəsərli publisistikasının, tarixi nəsrin görkəmli yaradıcısıdır. Onun bədii yaradıcılığı da, ictimai fəaliyyəti də Vətənə, müstəqilliyə və millətə xidmətə həsr olunmuşdur. Bunlar Sabir Rüstəmxanlının fəaliyyətinin ayrı-ayrı sahələri deyildir. Əksinə, Sabir Rüstəmxanlı həmin amillərin hamısının cəmindən, tamından ibarətdir. Bu mənada xalq şairliyi Sabir Rüstəmxanlı üçün şərəfli bir fəxri ad olmaqla yanaşı, həm də uzunmüddətli ədəbi-ictimai vəzifədir. Haqlı olaraq deyildiyi kimi, "Azərbaycanın son dönəm şeirində bu duyğuları (Vətən və millət sevgisisni – İ.H.) ən canlı və anlaşıqlı biçimdə tərənnüm edən şairlərin başında Sabir Rüstəmxanlı gəlir".

Xalq şairi Sabir Rüstəmxanlının yaradıcılığı Azərbaycanın müstəqilliyinin sənət aktıdır. O, yeni dövrün ən mükəmməl Azərbaycan naməsini yaratmışdır. Bədii düşüncə ilə elmi təfəkkürün vəhdəti Sabir Rüstəmxanlı yaradıcılığının özünəməxsusluğunu müəyyən edir.

Sözün böyük mənasında yüksək vətəndaşlıq qayəsi Sabir Rüstəmxanlının yaradıcılığındakı və ümumiyyətlə fəaliyyətindəki bütün meylləri özündə cəmləşdirir.

Sabir Rüstəmxanlını xalqa, Vətənə və müstəqil dövlətçiliyə xidmət etməyə gətirən yollar bundan sonra da onu daha böyük fədakarlıqla və məsuliyyətlə yazıb-yaratmağa, çalışıb-işləməyə çağırır.

***

"Qarabağa dönüş" həm ərazi baxımından, həm də milli-mənəvi cəhətdən doğma Vətənin bütövlüyünə qovuşmasının poemasıdır. Bu, ümumiləşdirilmiş şəkildə bütün yönləri ilə Bütövlük haqqında poemadır, milli-mənəvi və inzibati-coğrafi bütövlüyün uğurlu poetik təqdimatıdır.

İsa Həbibbəyli,
akademik

Sabir Rüstəmxanlının həyat və yaradıcılığının əsas tarixləri

Sabir Xudu oğlu Rüstəmxanlı 20 may 1946-cı ildə Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur.

1952 – Yardımlı rayonunun Hamarkənd yeddiillik məktəbinin birinci sinfinə daxil olmuşdur.

1957 – "Kəndim" adlı ilk şeiri Yardımlı rayonunun "Yenikənd" qəzetində dərc edilmişdir.

1959 – Təhsilini M.F.Axundov adına Yardımlı qəsəbə onbirillik məktəbində davam etdirmişdir.

1963 – Yardımlı qəsəbə onbirillik məktəbini bitirib Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olmuş, bir neçə ay sonra filologiya fakültəsinə dəyişilmişdir.

1964 – Təhsil almaqla yanaşı Respublika Uşaq kitabxanasında işləmişdir.

1964-1965 – Respublika mətbuatında ilk dəfə "Azərbaycan gəncləri" qəzetində "Kənd yolu" şeiri çıxmışdır;
– "Azərkitab"ın kitab bazasında fəhlə, sonra Nərimanov rayon mühafizə idarəsində qarovulçu işləmişdir.

1967 – ADU-nun (İndiki BDU) IV kursunda oxuyarkən tarixi abidələr haqqında məqaləsini "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirmiş və həmin qəzetin Tənqid və ədəbiyyatşünaslıq şöbəsinə kiçik ədəbi işçi vəzifəsinə işə götürülmüşdür. Respublika mətbuatında çıxışlar etməyə başlayır; şeirləri, hekayələri, ədəbi-tənqidi yazıları, tərcümələri dərc olunur, radio və televiziya ilə əməkdaşlıq edir. Sonralar qəzetdə böyük ədəbi işçi, xüsusi müxbir, bir neçə şöbədə şöbə müdiri olmuşdur;
– Ufa şəhərində Başqırstan Dövlət Universitetində "Azərbaycan ədəbiyyatında sərbəst şeir" mövzusunda məruzə etmişdir.

1968 – ADU-nun (İndiki BDU) Filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və Nizami adına Ədəbiyyat İnsitutunun qiyabi aspiranturasına qəbul olmuşdur.

1970 – "Gənclik" nəşriyyatında "Tanımaq istəsən" adlı ilk kitabçası nəşr olunmuşdur.

1971 – İrəvanda Gənc şairlərin V Ümumittifaq poeziya festivalında iştirak etmişdir. O vaxtdan şeirləri müxtəlif dillərə tərcümə olunmağa başlanmışdır.

1974 – "Gənclik" nəşriyyatında "Sevgim, sevincim" adlı ikinci kitabı çap edilmişdir.

1974-1975 – Ordu sıralarında xidmət etmişdir;
– "Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) və folklor" mövzusunda namizədlik dissertasiyası üzərində işə başlamışdır;
– Azərbaycanın böyük aktyoru Hüseyn Ərəblinski haqqında iri həcmli "İşıq ömrü" poemasını yazmışdır.

1975 – Yenidən "Ədəbiyyat və İncəsənət" qəzetində tənqid və ədəbiyyatşünaslıq şöbəsində fəaliyyətə başlamış, televiziyada verilişlər aparmış, sənədli filmlər studiyası ilə əməkdaşlığını davam etdirmişdir.

1976 – 1976-cı ildə "Molla Nəsrəddin" və folklor" mövzusunda dissertasiya işi müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsinə yiyələnmişdir.

1978 – Ukraynada Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində iştirak etmişdir. Xerson şəhərində şeir axşamında şeirlərini oxumuşdur;
– SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir;
– "Gənclik" nəşriyyatında "Xəbər gözləyirəm" adlı üçüncü kitabı çapdan çıxmışdır. Kitaba daxil olan "Bütövlük" poeması ədəbi ictimaiyyətdə geniş rəğbət doğurmuşdur;
– Oktyabr ayında ən yaxşı poemalarından olan "Didərginlər"i yazmışdır.

1979 – Əmək fəaliyyətini "Yazıçı" nəşriyyatında şöbə müdiri kimi davam etdirmiş, az sonra baş redaktor müavini olmuşdur.

1980 – "Yazıçı" nəşriyyatının baş redaktoru təyin olunmuşdur;
– Kutaisidə keçirilən Mayakovski şeir günlərində iştirak etmiş, Gelati monastırında tarixi Gəncə qapılarını görmüş, "Salam, Gəncə qapısı!" şeirini yazmışdır.

1981 – Azərbaycan yazıçılarının VII qurultayında Azərbaycan ziyalılarının vəziyyəti, kitab nəşrinin ağır vəziyyəti, ana dilinə dövlətin acınacaqlı münasibətilə bağlı kəskin çıxış etmiş və bu çıxışın nəticəsində yazıçıların qonorarı iki dəfə artırılmışdır;
– Moskvada SSRİ yazıçılarının VII qurultayında iştirak etmişdir;
– "Gəncə qapısı" şeirlər kitabı "Yazıçı" nəşriyyatında buraxılmışdır. Kitaba akademik, filologiya elmləri doktoru Bəkir Nəbiyev "Həyatın təravətli əksi" adlı ön söz yazmışdır. "Didərginlər" poeması kitaba daxil edilmişdir. Elçin, Məstan Günər, Nüsrət Kəsəmənli, Tahir Aslanlı kimi XX əsr Azərbaycan ədəbiyyatının böyük nümayəndələri, fəlsəfə elmləri doktoru, professor Cahangir Məmmədov və başqaları kitab haqqında dəyərli məqalələr yazmışlar.

1982 – Yanvar ayında Latviyada Dubulti yaradıcılıq evində olmuş, bir sıra lirik əsərini yazmışdır;
– SSRİ Jurnalistlər İttifaqının nümayəndə heyətinin tərkibində Fransada olmuş, "Humanite" qəzetinin yubileyində iştirak etmiş, Şimali Fransanı gəzmiş və "Fransa yollarına deyilmiş şeirlər" silsiləsini yazmışdır;
– Oktyabrda Frunzedə (Bişkek) Asiya və Afrika gənc yazıçılarının IV konfransında çıxış etmiş, dünyanın bir çox ölkələrindən gəlmiş gənc yazarlarla tanış olmuş, "Bu yurd mənə tanış gəlir" şeirini yazmışdır.

1983 – Yanvar-fevral aylarında Peredelkino yaradıcılıq evində yeni şeir kitabının üzərində çalışmışdır. "Gəncə qapısı" kitabına görə Azərbaycan Komsomolu mükafatına layiq görülmüşdür;
– "Sağ ol ana dilim" kitabı "Gənclik" nəşriyyatı tərəfindən buraxılmışdır. Haqqında çoxlu məqalə, diplom işləri yazıl-

mışdır. Kitabda cənubi Azərbaycan şairəsi Mərziyə Üskuyə haqqında "Hər kəs günəşi sevsə", yenə cənub mövzusunda "İnqilabdan dönən deyil" poemaları verilmişdir.
– "İşıq ömrü" poeması yazılandan doqquz il sonra işıq üzü görmüşdür. Xalq şairi Bəxtiyar Vahabzadə kitaba "Vətəndaşlıq qüruru ilə" adlı ön söz yazmışdır.

1984 – "Sovetskiy pisatel" nəşriyyatı Moskvada "Jdu vestoçki" adlı kitabını rus şairi Vladimir Trofimenkonun tərcüməsində nəşr etmişdir.

1984 – Litvada yaradıcılıq ezamiyyətində olmuş, polyak şairi Adam Mitskeviçin adıyla bağlı olan yerləri gəzmiş və "Üç min gözlü Litva" adlı şeir silsiləsini yazmışdır.

1985 – Adam Mitskeviçin "Krım sonetləri"ni və lirikasından nümunələri Azərbaycan dilinə tərcümə edib ayrıca kitab kimi oxuculara çatdırmışdır;
– "Molodaya qvardiya" nəşriyyatı "Yol gedir dağlara" adlı kitabını rus dilində ("Doroqa v qorı") Vladimir Trofimenko və Oleq Şestinskinin tərcüməsində rusca çap etdirmişdir. Oleq Şestinski kitaba ön söz yazmışdır;
– Həmin ilin fevralında "Ömür kitabı"nı yazmağa başlamışdır;
– Bolqarıstanda keçirilən Azərbaycan günlərinə gedən heyətə rəhbərlik etmişdir;
– "Əlvida könlümün Qara dənizi" şeirlər silsiləsini yazmışdır;
– Hindistanda Dünya şairlər assosiasiyasının ingiliscə nəşr edilən jurnalında şeirləri çap edilmişdir.

1986 – "Qan yaddaşı" adlı şeir kitabı "Yazıçı" nəşriyyatında çapdan çıxmışdır. Kitaba Cavad xana həsr edilmiş "Sönmüş ocaqların ağısı" və "Vətənsiz" poemaları daxil edilmişdir;
– Azərbaycan Yazıçılar Birliyində ədəbi mühitdə ciddi hadisə kimi qarşılanan məruzə etmişdir. Məruzə mətbuatda "Həqiqətdən keçən yollar" adı ilə çap edilmişdir. Mərhum şairimiz Xəlil Rza bu hadisəyə "Natəvan klubunda" adlı poemasını həsr etmişdir;
– Polşada Şərqi Avropa ölkələri gənc yazıçılarının I konfransında çıxış etmişdir;

– Vilnüsdə dünya litvalılarının qurultayında iştirak etmiş, bu ölkənin Milli Azadlıq Hərəkatının üzvləri ilə tanış olmuşdur;
– "Azərbaycan" qəzetində "Ömür kitabı"ndan parçalar dərc edilmişdir;
– Azərbaycan yazıçılarının VIII qurultayında məruzə etmiş və SSRİ yazıçılarının VIII qurultayının nümayəndəsi olmuşdur.

1987 – Türkiyəli dostlarının dəvəti ilə Türkiyəyə getmiş, "Türk ədəbiyyatı" dərgisində "Sabir Rüstəmxanlı ilə söhbət" adlı iri yazı dərc olunmuşdur. Çıxışları Türkiyə mətbuatında "Sabir Rüstəmxanlı: Türkiyə üzünü Şərqə çevirməlidir" ümumi başlıq altında geniş işıqlandırılmışdır.

1988 – 22 fevral Azərbaycan dövlət rəsmiləri və ziyalıları ilə birlikdə xüsusi təyyarə ilə Xankəndinə səfər etmişdir. O zamanki Təhsil Naziri Lidiya Rəsulovayla birikdə bir neçə gün Şuşa şəhərində olmuş, şəhər mitinqində çıxış etmişdir;
– "Ömür kitabı" əvvəlcə 30 min, sonra 100 min tirajla nəşr edilmişdir;
– 1 oktyabr SSRİ yazıçılar ittifaqının göndərişi ilə Monqolustana səfərə getmiş, eyni zamanda orada ayın 18-dək davam edən Azərbaycan Mədəniyyət Günlərində iştirak etmişdir. Oktyabrın 7-də və 8-də Tonyukuk və Gültəkin abidələrini ziyarət etmiş, bu səfər nəticəsində "Orxonla görüş" poemasını və Monqolustan haqqında səfər qeydlərini yazmışdır;
– "Varlıq" təşkilatının təsisçilərindən biri olmuşdur;
– Qarabağ hadisələri ilə bağlı mübarizəyə qoşulmuş, dəfələrlə Yuxarı Qarabağda və Ermənistanla sərhəddə olmuş, demək olar ki, hər gün müxtəlif rayonlarda, Bakının və Sumqayıtın müəssisələrində görüşlər keçirmişdir;
– Bakı mitinqlərində meydanın əsas aparıcılarından və xalq hərəkatının liderlərindən biri olmuşdur. Meydanda 18 gün ardıcıl davam edən mitinqi idarə tmişdir.. Meydan haqqında televiziya verlişləri və meydandan translyasiyalar aparmışdır.

1989 – 18-19 fevral Gəncə Pedoqoji Universitetində Rafael Hüseynovla birlikdə görüşlər keçirilmişdir. Gəncə qəbiristanlığında şair Abdulla Tofiq və onun qardaşı Cahangirin məzarını tapıb ziyarət etmişdir;

– 27-30 aprel Şair Abbas Abdulla ilə birgə Moskvada səfərdə olmuşdur. Aprelin 29-da Bakı kinoteatrında Moskvada yaşayan azərbaycanlıların da iştirakı ilə keçirilən Azərbaycan Ədəbiyyatı bayramında çıxış etmişdir. Həmin günlər haqqında gündəliyində belə yazmışdır: *"Moskva mətbuatının bizə münasibəti ümumiyyətlə milli məsələlərə münsibəti, daha doğrusu münasibətsizliyi söhbətimizin əsas mövzusudur. Moskva Arbitr vəzifəsini boynuna çəkməklə daha çox ara qızışdırır. Öz dərdlərini və dağılmaq təhlükəsini unutdurmaq, daha doğrusu diqqətdən yayındırmaq üçün gah orda, gah burda ocaqlar çatır. Bu missiyasını yerinə yetirməkdə öz lakeylərimiz (yaltaqlarımız - E.N.) də ona sidq ürəklə kömək göstərirlər. Əkrəm Əylislinin "Drujba Narodov" jurnalındakı məqaləsi biabırçılıqdır (1989, № 3) Bütün günü Sergey Baruzdini ("Drujba Narodov" Jurnalının redaktoru) axtarıb tapa bilmirik. Söhbətimiz baş tutmasa da, heç olmasa üzünə tüpürərdik. Təəssüf ki, Moskvadakı Baruzdinlərlə yanaşı Bakıda da kifayət qədər Baruzdinlərimiz, satqınlarımız var. "Bakinskiy raboçiy", "Vışka", "Literaturnıy Azerbaydjan" elə bil ayrı məmləkətdə çıxır."*

– İyulun 1-də Aydın Məmmədovla Ağdam və Şuşaya getmiş, Azərbaycan kəndlərinin vəziyyəti ilə tanış olmuşlar;

– 30 sentyabrda Gürcüstana gedib Türkiyənin tanınmış vəkili və ictimai xadimi İbrahim Bozyeli Sarpda qarşılamışdır;

– 12 oktyabr İbrahim Bozyeli ilə Daşkəndə səfər etmiş, bir neçə gün Özbəkistanı gəzmiş, Səmərqənd abidələrini ziyarət etmiş və özbək yazıçıları ilə görüşlər keçirmişdir;

– 15 oktyabrda Aşqabada səfər edərək Türkmənistan yazıçıları ilə görüşmüşdür;

– "Ömür kitabı" ən yaxşı publisistik kitab kimi Azərbaycan Yazıçılar İttifaqının Mirzə Fətəli Axundzadə mükafatına layiq görülmüşdür;

– Oqniyen Lakireviçin şeirlər kitabını Azərbaycan dilində nəşr etdirmişdir;

– Azərbaycan Xalq Cəbhəsi (AXC) Partiyasının təşəbbüs qrupunun üzvü kimi xalq arasında geniş iş aparmışdır. AXC daxilindəki parçalanmalara etiraz olaraq Qarabağa Xalq Yardımı Komitəsinin təsisçilərindən biri olmuşdur;

– Oktyabr ayından demokratik mətbuatımızın qaranquşu olan, sonrakı mətbuata ciddi təsir göstərən "Azərbaycan" qəzetini nəşr etmişdir.

– Noyabr-dekabr aylarında yenicə birləşən Şərqi və Qərbi Almaniyada, Berlində olmuş, birləşmiş Almaniyanın müxtəlif şəhərlərində görüşlər keçirmiş Azəri-Türk Kültür Dərnəkləri Federasiyasının yaranmasına kömək göstərmişdir.

1990

– Yanvarın əvvəllərində AXC-nin konfransında idarə heyətinin üzvü seçilmişdir. "Ömür kitabı" rus dilində 50 min tirajla nəşr edilmişdir;
– 16-17 yanvar Azərbaycan Milli Elmlər Akademiyasında Azərbaycan ziyalılarının 2 günlük müşavirəsində çıxış etmişdir. SSRİ-nin bütün dövlət idarələrinə 260 nəfərin imzası ilə məktub hazırlanmışdır. Yanvarın 17-də axşam ziyalıların bir qrupu ilə birgə (Anar, Elçin, Dilarə Əliyeva, Nizami Süleymanov və bir neçə akademik) Mərkəzi Komitədə Moskvadan gəlmiş Gerenko ilə görüşmüşlər.
– 18 yanvar Ağdam Dövlət teatrı "Uzaq əsirlərin həqiqəti" pyesini tamaşaya qoymuşdur. Bakıya yaxınlaşan təhlükə üzündən ilk tamaşaya gedə bilməmişdir.
– 25 yanvar AXC idarə heyətinin görüşü keçirilmişdir. Görüşdə cəmi 5 nəfər (Tofiq Qasımov, Sabit Bağırov, İsa Qəmbər, Pənah Hüseynov və Sabir Rüstəmxanlı) iştirak etmişdir. Yığıncağda qanlı yanvarla bağlı bəyanatlar hazırlanmış, ayın sonuna kimi Ali Sovetin növbəti yığıncağına çağırılması və müvafiq qərarların qəbul edilməsi tələb olunurdu;
– 25 yanvar Ali Sovetin yığıncağında yanvar faciəsini araşdırmaq və hadisəyə siyasi qiymət vermək məqsədi ilə istintaq qrupu yaradılmışdır. İstintaq qrupuna Müthət Abbasov, Tamerlan Qarayev, Tofiq İsmayılov, Hüseyin Talıbov, Əlisahib Orucov, Rəşid Mahmudov, Əkrəm Şəkilinski, Surxay Tağıyev, Mustafa Nəsirov, Tofiq Qasımov və Sabir Rüstəmxanlı daxil idi;
– 3 mart Şamaxıda AXC-nin səyyar məclisi keçirilmiş və Sabir Rüstəmxanlı orda hadisələrə və cəbhənin fəaliyyətinə obyektiv münasibəti ilə seçilən çıxış etmişdir;
– 9-11 aprel Tiflisdə aprel hadisələrinin il dönümündə iştirak etmişdir. Bakının qanlı yanvar faciəsindən sonra Tiflis də Bakı ənənəsi ilə qərənfillərlə bəzənmiş və bütün Tiflisi heyrətə salmışdır. Tiflislilər Azərbaycanın bu addımına göz yaşları ilə tamaşa edirdilər. Sonra Marneulidə, Qazaxda və Ağstafada görüşlər keçirərək geri dönmüşdür;

– Frankfurtda Türk-İslam Kültür Dərnəkləri Birliyinin qurultayında çıxış etmişdir;
– Türkiyənin Kayseri şəhərində Birinci millətlərarası Böyük Azərbaycan konfransında milli-azadlıq hərəkatının özəllikləri barədə məruzə etmişdir;
– Gürcüstanda yaşayan azərbaycanlıların qonağı olmuş və görüşlər keçirmişdir;
– İstanbulda I Millətlərarası Azəri-Türk Dərnəklərinin konfransında iştirak və çıxış etmişdir;
– Bakı şəhəri 81 saylı Mehmandarov seçki dairəsindən Azərbaycan Ali Sovetinə deputat seçilmişdir;
– Parlamentdə "Müstəqil Azərbaycan" deputat fraksiyasının həmsədri seçilmişdir.

1990-1991 – Bağdadda Əbdüllətif Bəndəroğlunun "Yurd" qəzetində, Tehranda doktor Cavad Heyətin "Varlıq" jurnalında şeirləri, "Ömür kitabı"ndan parçalar, haqqında məqalələr dərc edilmişdir.

1991 – Avropa şəhərlərində Azərbaycanı müdafiə mitinqlərinin lent yazılarını televiziya ilə göstərmişdir. 20 yanvarın il dönümünün keçirilməsinə icazə verilmədiyinə görə lent yazıları ciddi əks-səda doğurmuşdur.
– Avqust ayında AXC binası dağıdılarkən ciddi bədən xəsarəti almışdır. Bir il doqquz aydan sonra meydana qayıtmaq mümkün olmuşdur;
– Moskvada imperiyanın mövcudluğuna nöqtə qoyan tarixi yığıncaqda, SSRİ Ali Sovetinin sonuncu sessiyasında iştirak etmişdir;
– Respublika mətbuat komitəsinin sədri vəzifəsinə təyin edilmişdir;
– "Müstəqil Azərbaycan" deputat blokunun təkidi ilə Azərbaycan parlamenti Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir.

1992 – Qahirədə İslam konfransı təşkilatının Mətbuat və İnformasiya Nazirliklərinin II konfransında çıxış etmişdir;
– Azərbaycan və İran parlamentləri, eləcə də iki ölkənin informasiya və mədəniyyət sahələrindəki əlaqələrini möhkəmləndirmək üçün Tehranda görüşlər keçirmiş, danışıqlar aparmışdır;

– Şimali Kipr Türk Respublikasında türk dövlətlərinin parlament üzvlərinin iştirakı ilə keçirilən yığıncaqda Türk parlamentinin yaradılması təklifi ilə çıxış etmişdir;
– Tehranda Beynəlxalq kitab sərgisində olmuş, Azərbaycana həsr edilmiş böyük tədbirdə çıxış etmiş, İran dövlətinin rəhbəri Ağaye Xamenei ilə görüşmüşdür;
– Nyu-Yorkda Türkiyə-Amerika cəmiyyətləri Assambleyasının türk dövlətlərinin problemlərinə həsr olunmuş II Millətlərarası Türk Dünyası Konqresində çıxış etmişdir;
– Vətəndaş Həmrəyliyi Partiyasının təsis qurultayında partiyanın sədri seçilmişdir;
– İranda keçirilən Şəhriyar günlərində iştirak etmişdir.

1993 – Türkiyənin Antalya şəhərində keçirilən türk dövlət və cəmiyyətlərinin I Dostluq, Qardaşlıq qurultayında iştirak etmişdir;
– Azərbaycanda demokratik mətbuat ənənələrinin bərpası və inkişafında göstərdiyi xidmətlərə görə "Qızıl qələm" mükafatına layiq görülmüşdür;
– Türkiyədə "Qarabağ", İsveçdə "Qayıdaram Araz boyu" adlı kitabları nəşr edilmişdir;
– Milli Məclisin deputatlarıyla birgə Türkiyədə olmuşdur;
– Şahmat federasiyasının prezidenti kimi Hindistanda səfərdə olmuşdur.

– İstanbulda Türk dünyası konfransında çıxış etmiş, Yunanıstan, Bolqarıstan, Makedoniya, Kosova, Kipr, İraq, Krım, Tatarıstan və s. yerlərdən olan türk liderləri ilə görüşmüşdür.

1994 – Azərbaycan prezidenti ilə birlikdə Çinə rəsmi səfərə getmişdir;
– Azərbaycan nümayəndə heyətinin tərkibində İraqda Füzuli günlərində iştirak etmiş, Kərkükdə olmuşdur;
– Minskdə MDB ölkələri Mətbuat və İnformasiya Nazirlərinin kitab ticarəti, poliqrafiya işləri üzrə əməkdaşlıq mövzusuna həsr edilmiş yığıncağında iştirak etmişdir.

1995 – Hindistana səfər etmişdir. Suriyada, İslam Konfransı Təşkilatı Mətbuat və İnformasiya Nazirliklərinin III konfransında çıxış etmiş, Livana, Beyruta səfər etmiş, habelə Nəsiminin qəbrini ziyarət etmişdir;

– Mətbuat və İnformasiya Naziri vəzifəsindən istefa vermiş, Yardımlı-Masallı Seçki Dairəsindən Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir;
– İstanbulda "Türk dünyasının sosial-iqtisadi məsələləri və Türkiyə təcrübəsi" simpoziumunda çıxış etmişdir;
– "Zaman məndən keçir" və "Bu sənin xalqındır" kitabları nəşr edilmişdir.

1996 – Azərbaycan prezidenti ilə birgə Lüksemburqda, Belçikada və Norveçdə səfərdə olmuşdur;
– Mirzə Fətəli Axundzadə adına Opera və Balet Teatrında anadan olmasının 50 illiyi təntənə ilə qeyd edilmiş, ölkə prezidenti Heydər Əliyev yubiley gecəsində iştirak etmişdir. Prezidentin fərmanı ilə "Şöhrət ordeni"nə layiq görülmüşdür. Bir müddət sonra S.Rüstəmxanlı "Şöhrət ordeni"ni almaqdan imtina etmişdir.

1997 – İran İslam Respublikasında Ərdəbil Ostandarı Əhməd Necati ilə görüşdə qonşu Yardımlı və Lerik rayonları ilə Ərdəbil vilayəti arasında əlaqələrin yaxşılaşdırılması məsələsini müzakirə etmişdir;
– Şimali Kipr Türk Respublikasında keçirilən tədbirlərdə iştirak etmişdir;
– Türkiyədə "Bu yurd mənə tanış gəlir" adlı şeirlər kitabı buraxılmışdır.

1998 – Bakıda keçirilən Türk Dünyası yazıçılarının III Qurultayında iştirak etmişdir;
– Hollandiyanın Haaqa Mərkəzi Kitabxanasında Azərbaycan ədəbiyyatı və mədəniyyəti mövzusunda məruzə etmişdir;
– Böyük polyak şairi Adam Mitskeviçin "Krım sonetləri, Pantadeuş" adlı şeirlər və poemalar kitabını Azərbaycan dilində nəşr etdirmişdir;
– "Vətən" nəşriyyatında "Bütövlük həsrəti" şeirlər kitabı "Bütöv Azərbaycan Kitabxanası" seriyasının birinci kitabı kimi nəşr edilmişdir;
– Cənubi Afrika və Namibiya respublikalarında olmuş, Namibiyada Dünya Parlamentlər Şurasının yığıncağında çıxış etmişdir.

– Vaşinqtonda Dünya Azərbaycanlılarının II Qurultayında çıxış etmişdir;
– "Ömür kitabı" Türkiyədə Anadolu türkcəsində nəşr edilmişdir;
– Güney Azərbaycanda, Urmiya gölü yaxınlığındakı Şərəf-xana qəsəbəsində Azərbaycanşünaslıq konfransında məruzə etmişdir.

1999 – Amerika Birləşmiş Ştatlarında səfərdə olmuşdur;
– Türkiyənin Dumlupinar Universitetinin dəvəti ilə Kütahiyyə Bələdiyyə sarayında Qarabağ mövzusunda konfrans keçirmişdir;
– ATƏT-in İstanbul Sammiti ərəfəsində Türkiyə televiziyalarında Qarabağın taleyi ilə bağlı çıxışlar etmişdir.

2000 – Vətəndaş Həmrəyliyi Partiyası Milli Məclisə seçkiləri uğurla başa vuraraq Məclisdə yer qazanan dörd partiyadan biri olmuşdur. S.Rüstəmxanlı Milli Məclisdə Qarabağ fraksiyası yaradaraq "Qarabağın səsi" jurnalını nəşr etdirmişdir.

2001 – İstanbulda Türk Dünyası çağdaş ədəbiyyat günlərində iştirak və çıxış etmişdir;
– NATO-nun Brüsseldəki qərargahında NATO-nun genişlənməsi problemi ilə bağlı keçirilən görüşlərdə iştirak etmişdir.

2003 – "Xətai yurdu" xatirə romanı oxuculara təqdim edilmişdir;

– Xüsusi dəvətlə Türkiyədə olmuş, qardaş ölkənin aparıcı partiyalarının sədrləri və millət vəkilləri ilə görüşlər keçirmişdir;
– Azərbaycan Respublikasının prezidentliyinə namizədliyini irəli sürmüşdür.

2004 – "Xətai yurdu" romanı İstanbulda Türkiyə türkcəsi ilə çap olunmuşdur;
– Dünya Azərbaycanlıları Konqresi (DAK) Rusiya təmsilçilərinin təşəbbüsü ilə Moskvada diaspora təşkilatlarında və Azərbaycan məktəbində görüşlər keçirmişdir;
– Türkiyənin Manisa şəhərində keçirilən Türkiyənin erməni məsələsi I Beynəlxalq Simpoziumunda məruzə etmişdir;

– May-iyun aylarında Türk Dövlətlərinin Parlament Assambleyasının yaradılması təşəbbüsü ilə Türkiyədə, Qırğızıstan, Özbəkistan Respublikalarında olmuş, bu dövlətlərin parlament sədrləri və deputatları ilə görüşlər keçirmişdir. Mərkəzi Asiyaya səfəri zamanı həmçinin Qazaxıstanın Çu vilayətində yaşayan soydaşlarımızla görüşmüş, Mərkəzi Asiyadakı diaspora təşkilatlarımızın fəaliyyəti ilə tanış olmuşdur;
– Türkiyənin Kastamonu elində "VIII Türk dünyası günləri" adlı tədbirdə iştirak etmişdir;
– Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamına əsasən seçilmiş əsərləri nəşr edilmişdir;
– Türkiyənin Antalya şəhərində Türk Toplu İş Hüququnda yeni dirçəlmələr seminarında iştirak etmişdir;
– İsveçin Stokholm şəhərində DAK İdarə Heyətinin yığıncağına qatılmış, buradakı soydaşlarımızın 21 Azər gününə həsr edilmiş mitinqində çıxış etmişdir;
– Özbəkistanda Parlament seçkilərini müşahidə etmişdir;
– Türkiyə Cümhuriyyətində Böyük Millət Məclisində müxtəlif siyasi partiyalarla görüşləri olmuş, Türkiyə və Avropa Birliyi, Türkiyəyə qarşı əsassız erməni iddiaları, Qarabağ problemi, Türkiyə – Azərbaycan əlaqələri və türk dövlətləri parlament assambleyasının yaranması, əsərləri ilə bağlı müzakirələr aparmış, konfranslarda, simpoziumlarda və televiziya proqramlarında çıxışlar etmişdir.

2005

– 12 iyulda Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "Xalq şairi" fəxri adını almışdır;
– DAK İdarə Heyətinin İstanbul görüşündə iştirak etmiş, bir neçə televiziya kanalında İraq türkmanlarının ağır vəziyyəti barədə çıxış etmişdir;
– Trabzon Universitetində Şimali Kipr Türk Respublikasının o vaxtkı prezidenti Rauf Denktaşın da iştirak etdiyi "Böyük Orta Şərq layihəsi, Avropa Birliyi və Türkiyə" simpoziumunda iştirak etmiş və məruzə etmişdir;
– "Göy Tanrı" romanı çapdan çıxmışdır;
– Moskvada Azərbaycan diasporunun nümayəndələri qarşısında çıxış etmişdir;

– IV Beynəlxalq Tokat Yeşil İrmak şeir məclisində çıxış etmişidir;
– İsveçin Stokholm şəhərində DAK-ın növbəti qurultayı keçirilmiş və Sabir Rüstəmxanlı Dünya Azərbaycanlıları Konqresi Məclisinin sədri seçilmişdir;
– Türkiyədə "İleri yayınları" nəşriyyatı S.Rüstəmxanlının "Seçmə şeirlər" adlı kitabını nəşr etmişdir;
– ABŞ Konqres Kitabxanası S.Rüstəmxanlının Azərbaycanda və Türkiyədə çıxan kitablarını istəmiş və bu xahiş yerinə yetirilmişdir;
– Türkiyəyə səfər edərək Türk Dövlətləri Parlament Assambleyası ideyasının TBMM-də müzakirəsində iştirak etmişdir;
– 72 saylı Yardımlı – Masallı Seçki Dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinə deputatlığa namizədliyini irəli sürmüşdür.

2006 – ABŞ informasiya agentliyinin dəvəti ilə mart ayının 3-dən 18-dək Nyu-Hempşer, Hyuston, Vaşinqton, Nyu-York şəhərlərində olmuş, bələdiyyə seçkilərini müşahidə etmiş, Azərbaycan icmaları ilə görüşlər keçirmişdir.

2007 – Gəncə xanı Cavad xan haqqında "Ölüm zirvəsi" romanı nəşr edilmişdir;
– İranda türklərə qarşı yönələn diskriminasiya siyasətinə etiraz olaraq Azərbaycan – İran dostluq qrupuna üzvlükdən imtina etmişdir.

2008 – Şərq-Qərb nəşriyyatı iki romanını - "Ömür kitabı" və "Göy Tanrı" əsərlərini bir cilddə nəşr etmişdir;
– DAK-ın yeni sədri seçilib;
– Ayətulla Seyyid Əli Xameneiyə Azərbaycan və fars dillərində açıq məktub ünvanlamışdır;
– 26 martda Frankfurtda Diaspor təşkilatlarının növbəti iclasında iştirak etmiş, səfər zamanı "Ziya Bunyadovla söhbət" adlı poemasını yazmağa başlamışdır;
– 30 sentyabrda Vaşinqtonda DAK həmsədri Firudin Pərvizniya ilə birlikdə dövlət departamentində, konqresdə, Nyu-York şəhərindəki BMT baş qərargahında görüşlər keçirmiş, qərargahın qarşısında İran mühacirlərinin keçirtdiyi mitinqdə çıxış etmişdir.

2009 – 30 yanvarda Avstraliyaya səfər etmişdir. Səfər vaxtı DAK-ın Avstraliya nümayəndəliyi yaradılmış, Kanberrada Avstraliya senatının üzvləri və Avstraliya Xarici İşlər Nazirliyinin məsul şəxsləri ilə görüşlər keçirilmişdi.

2010 – "Difai fədailəri" romanı çapdan çıxmışdır;
– 72 saylı Yardımlı-Masallı Seçki Dairəsindən Azərbaycan Respublikasının Milli Məclisinə deputat seçilmişdir;
– 29 yanvar Afrikada Uqandanın paytaxtı Kampalada İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının yığıncağında çıxış etmişdir;
– 21 fevral Şimali Kiprə səfər etmişdir;
– 25 fevralda Alaniyanın Köln şəhərində DAK idarə heyətinin yığıncağını keçirmişdir;
– 4-6 mayda Belçika senatında – Brüsseldə – Qarabağ məsələsinə həsr olunmuş dinləmələrdə çıxış etmişdir;
– 19 may Bakı, Frankfurt, Nyu-York Türk Diaspor təşkilatlarının tədbirlərində iştirak etmiş, "Radio Türküm" proqramında çıxış etmiş, Türk yürüşündə iştirak etmişdir. Sonra BMT-də əslən Hindistandan olan və Yaxın Şərq üzrə məsul şəxs Amid Sinkhal ilə görüşmüşdür;
– 24 mayda Nyu-Yorkdan Kanadanın Ottava şəhərinə səfər etmiş Azərbaycan-Kanada Parlamentlərarası dostluq qrupunun sədri kimi Kanada parlamentində görüşlər keçirmişdir;
– 21 oktyabr İstanbul Cəvahir Konqres salonunda Türk Asiya Strateji Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə keçirilən Dünya Türk formunda çıxış etmişdir;
– 2 dekabr Köln Avropa azərbaycanlılar Konqresinin forumunda çıxış etmişdir.

2011 – "Sunami" romanı "Qanun" nəşryatında çap edilmişdir;
– 13 sentyabr Parisdə DAK-ın təşəbbüsü ilə keçirilən və Fransız senatorlarının da iştirak etdiyi, Güney Azərbaycan problemlərinə həsr olunmuş yığıncaqda çıxış etmişdir.

2012 – İndoneziyada İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının sessiyasında iştirak və çıxış etmişdir;
– Dünya Azərbaycanlılarının Konqresinin Ukraniyanın Donetsk şəhərində keçirilən 12-ci qurultayında DAK-ın həmsədri seçilmişdir;

– "Difai fədailəri" romanı, "Atamın ruhu" povesti, "Əbədi sevda" şeirlər və poemalardan ibarət kitabları təkrar nəşr edilmişdi.

2013 – Sudanda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının sessiyasında iştirak və çıxış etmişdir;
– ABŞ-a səfər etmiş, dövlət departamentində və konqresdə görüşlər keçirmiş, Nyu-Yorkda təşkil edilmiş "erməni yalanına son" mitinqində çıxış etmişdir. Səfər çərçivəsində o həmçinin bu ölkədəki Azərbaycan dərnəkləri ilə görüşlər keçirmiş Türk-Amerika Assosiyasının keçirdiyi konfransda məruzə etmişdir;
– İranda türklərin vəziyyəti ilə bağlı bəyanatlar vermişdir;
– "Ölüm zirvəsi" romanı təkrar nəşr edilmişdir.

2014 – Moskvada Azərbaycan tələbə gənclərinin keçirdiyi Novruz şənliyində iştirak etmişdir;
– Tatarıstanda Dünya Azərbaycanlılarının Həmrəylik bayramı və DAK-ın Tatarıstan nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən konfransda iştirak etmişdir;
– "Dərdə əyilmə" adlı publisistika kitabı çapdan çıxmışdır.

2015 – İstanbulda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının sessiyasında iştirak və çıxış etmişdir;
– İstanbulda Dünya Azərbaycanlıları Konqresinin 13-cü qurultayında təşkilatın həmsədri seçilmişdir;
– İsveçrənin Cenevrə şəhərində BMT-də Təmsil Olunmayan Dövlətsiz Millətlər və Xalqlar Təşkilatının (UNPO) İranda insan haqları və ekoloji böhran məsələlərinə həsr edilmiş konfransında məruzə etmişdir;
– İyun ayının 17-də "Bengü Türk" televiziyasında Xocalı soyqırımıyla bağlı geniş proqramda çıxış etmişdir;
– İyulun 17-də Dağlıq Altay Respublikasına səfər etmiş, geniş həcmli səfər qeydlərini qələmə almış və onların bir qismi Moskvada "Literaturnaya qəzeta"da dərc edilmişdir;
– 29 oktyabr tarixində İstanbul Türk-Azərbaycan Dərnəyinin qurtuluş savaşına həsr edilmiş konfransında çıxış etmişdir;
– 1 noyabr tarixində Türkiyənin Giresun Universitetində "Axıska Türkləri" İkinci Beynəlxalq simpoziumunda Şimali Kipr Türk Respublikasının prezidenti Rauf Denkdaşın da qatıldığı konfransda iştirak etmişdir;

– 28-29 noyabr tarixlərində İstanbulda Yunus Emre İnstitutu təşkilatçılığı və Türk Dil Qurumunun yardımı ilə "Birinci Millətlərarası Qafqaz Türkoloqları" toplantısında çıxış etmişdir.

2016 – 8 may tarixində Türkiyədə Kırşehir Ahi Evran Universitetində qonaq olmuş, Hacı Bektaşi Veli dərgahını ziyarət etmişdir;
– İstanbul bələdiyyəsi "Yurdumun ən gözəl nəğməsi" adlı şeirlər kitabını nəşr etmişdir. İstanbul Böyükşəhər Bələdiyyə sədri Qədir Toppaş kitaba ön söz yazmışdır;
– 20 may tarixində İstanbul Əli Əmiri mədəniyyət mərkəzində İstanbul Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə Sabir Rüstəmxanlının 70 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirilmişdir;
– 23 may tarixində Azərbaycan Milli Dram Teatrında anadan olmasının 70 illiyinə həsr olunmuş təntənəli gecə keçirilmişdir.

2017 – 25 mart İstanbul Böyükşəhər Bələdiyyəsinin mədəniyyət bölməsinin təşkilatçılığı ilə Əli Əmiri Mədəniyyət mərkəzində keçirilən Xocalı soyqırımının 25 illiyinə həsr olunuş yığıncaqda çıxış etmişdir;
– "Akademikin son əsəri" adlı romanı çapdan çıxmışdır;
– 22 noyabr tarixində Nalçikdə Kabardin-Balkar Respulikasının Xalq şairi Qaysın Quliyevin anadan olmasının 100 illik yubileyi münasibəti ilə keçirilən tədbirlərdə iştirak etmişdir;
– 29 noyabr tarixində Türkiyənin Malatya şəhərində İsmət İnönü Universitetində Qarabağ probleminə həsr olunmuş tədbirdə çıxış etmişdir.

2018 – Türkiyənin Adana şəhərində qurtuluş günü münasibətilə keçirilən tədbirlərdə iştirak etmişdir. Bu münasibətlə keçirilən Adana kitab sərgisində imza günü olmuşdur;
– "Mili taleyimiz və biz", "Astar" kitabları nəşr edilmişdir;
– 18 mart tarixində VHP-nin növbəti - 12-ci qurultayında iştirak etmişdir;
– 25 aprel tarixində Türkiyənin Amasya şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr edilmiş yığıncaqda məruzə etmişdir;

– 27 aprel tarixində Moskvada Azərbaycan Mədəniyyət Mərkəzində Rusiya məktəbləri üçün Azərbaycan dili dərsliklərinin hazırlanması probleminə həsr olunmuş müzakirələrdə iştirak etmişdir;
– 30 aprel tarixində Moskvada Sergey Yesenin adına Mədəniyyət Mərkəzində Azərbaycan və rus şairlərinin birgə şeir axşamında çıxış etmişdir;
– 22 iyun tarixində Bakıda Beynəlxalq Mətbuat Mərkəzində DAK-ın təşəbbüsü ilə keçirilən Qarabağ forumunda açılış nitqi söyləmiş və forumu idarə etmişdir;
– 21 sentyabr tarixində Mahaçqalada keçirilmiş kitab festivalında iştirak etmiş, Şeyx Şamilin son səngəri olan Qunib kəndini ziyarət etmiş və "Şeyx Şamili ziyarət" adlı məqalə yazmışdır;
– 24 oktyabr tarixində Azərbaycan Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Tokat Kitab bayramında imza günü keçirilmiş və oxucularla görüşü təşkil olunmuşdur;
– 30 oktyabr tarixində Kazanda gənclik dostu, Tatarıstanın xalq şairi Robert Minnulinin anadan olmasının 70 illik yubileyində iştirak etmişdir;
– 21 noyabr tarixində İstanbulda "Dəlilər" filminin təqdimatında istirak etmişdir;
– 14 dekabr Ankara Hacı Bayram Vəli Universitetində Güney Azərbaycan mövzusunda konfransda çıxış etmiş və Güney Azərbaycanı təmsil edən siyasi partiya və qurumların müzakirələrində iştirak etmişdir.

2019

– 22 mart tarixində Almaniyanın Köln şəhərində Azərbaycan diasporunun təşkil etdiyi Novruz bayramı şənliklərində iştirak etmişdir;
– "Qanun" nəşriyyatında "Özümüzdən böyük sözümüz" kitabı buraxılmışdır;
– AMEA-nın Folklor inistitutu tərəfindən "Xalqın söz silahı" adlı kitabı nəşr edilmişdir;
– Aprel ayında İstanbulda Türk Ədəbiyyatı Vəqfinin qonağı olmuşdur;
– 28 Aprel tarixində Cocuq Mərcanlıda kənd əhalisiylə və məktəblilərlə görüşmüşdür;
– Mirzə Cəlil Məmmədquluzadə adına nəsr mükafatına layiq görülmüşdür;

– AYB-nin “Natəvan” klubunda Xalq şairinin “Özümüzdən böyük sözümüz” kitabının təqdimatı keçirilmişdir.

2021

– 20 mayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şöhrət” ordeni ilə təltif edilmişdir;
– 15 cildlik “Seçilmiş əsərləri”nin 1-ci cildi (Şeirlər: 1962-1977) və 2-ci cildi (Şeirlər: 1978-1987) “Qanun” nəşriyyatında çap olunmuşdur;
– “Qarabağa dönüş” adlı poeması kitab şəklində “Qanun” nəşriyyatında çap olunmuşdur;
– AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən “Xalq şairi Sabir Rüstəmxanlı: həyat və yaradıcılığı” adlı kitab “Elm və təhsil” nəşriyyatında çap olunmuşdur. (Ön sözün müəllifi akademik İsa Həbibbəylidir);
– Anadan olmasının 75 illiyi münasibətilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən “Sabir Rüstəmxanlı” adlı elektron məlumat bazası hazırlanmışdır;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından “Sabir Rüstəmxanlı” biblioqrafiyasını nəşr etdirmişdir.

Основные даты жизни и творчества Сабира Рустамханлы

Сабир Худу оглы Рустамханлы родился 20 мая 1946 года в селе Хамаркенд Ярдымлинского района.

1952 – Пошел в первый класс семилетней школы в селе Хамаркенд Ярдымлинского района.

1957 – В ярдымлинской газете «Еникенд» было опубликовано первое стихотворение «Мое село».

1959 – Продолжил обучение в 11-летней школе ярдымлинского поселка им.М.Ф.Ахундова

1963 – Окончил 11-летнюю ярдымлинскую школу и поступил на факультет востоковедения АГУ.Через несколько месяцев перевелся на филологический факультет

1964 – Паралелльно с обучением работал в Республиканской Детской Библиотеке.

1964-1965 – Впервые в республиканской печати, в газете «Молодежь Азербайджана» было опубликовано его стихотворение «Сельская дорога»;
–Работал охранником на книжной базе «Азеркитаб».

1967 – Во время обучения на IV курсе опубликовал в газете «Адебиййат и инджесенет» («Литература и искуство» статью об исторических памятниках и был приглашен на должность младшего литсотрудника в отдел литературной критики этой газеты. В это же время начинает выступать в республиканской печати со стихами, рассказами, литературно-критическими статьями, переводами. Сотрудничает с телевидением и радио. Затем становится старшим литсотрудником газеты, спецкором, а также руководителем некоторых отделов;

– Выступил в Уфе в Башкирском Государственном Университете с докладом на тему «Вольный стих в азербайджанской поэзии».

1968 – Окончил с красным дипломом филологический факультет АГУ и поступил на заочное отделение аспирантуры Института Литературы им. Низами.

1970 – В издательстве «Гянджлик» была опубликована первая книга «Если хочешь узнать».

1971 – Принимал участие в V обще-союзном поэтическом фестивале молодых поэтов, состоявшемся в Ереване. С того времени его стихи стали переводиться на разные языки.

1974 – В издательстве «Гянджлик» была опубликована вторая книга «Моя любовь, моя радость».

1974-1975 – Проходил службу в армии;
– Начал работу над кандидатской диссертацией «Джалил Мамедкулизаде (Молла Насреддин) и фольклор»;
– Опубликовал большую поэму «Жизнь света» о великом азербайджанском актере Гусейне Араблинском .

1975 – Возобновил работу в отделе литературной критики газеты «Адебиййет и инджесенет», вел телепрограммы, продолжил сотрудничество со студией документальных фильмов.

1976 – В 1976 году защитил диссертацию на тему «Молла Насреддин и фольклор» и стал кандидатом филологических наук.

1978 – Принимал участие в проходивших на Украине Днях азербайджанского искусства и литературы. Читал свои стихи на поэтическом вечере, состоявшемся в городе Херсоне;
– Был удостоен членства в Союзе Писателей СССР;
– В издательстве «Гянджлик» была опубликована третья

книга «Жду вестей». Поэма «Целостность», вошедшая в книгу, вызвала большое сочувствие в обществе;
–В октябре создал одну из лучших своих поэм «Изгнанники».

1979 – Продолжил трудовую деятельность в качестве руководителя отделом в издательстве «Языcы», а через некоторое время стал заместителем главного редактора.

1980 – Был назначен главным редактором издательства «Языcы»;
– Принимал участие в Днях поэзии Маяковского, проходивших в Кутаиси. Увидев в монастыре Гелати древние ворота Гянджи, написал стихи «Здравствуйте, ворота Гянджи!»

1981 – На VII съезде азербайджанских писателей резко высказался о положении азербайджанской интеллигенции, плачевном состоянии книгоиздания, пренебрежительном отношении государства к родному языку. В результате этого выступления гонорары писателей были увеличены вдвое;
– Участвовал в работе VII съезда писателей СССР в Москве;
– В издательстве «Гянджлик» была опубликована книга стихов «Ворота Гянджи». Предисловие к книге написал академик, доктор филологических наук Бекир Набиев. Оно называлось «Яркое отражение жизни» В книгу была включена поэма «Изгнанники». О книге написали статьи такие выдающиеся представители азербайджанской литературы XX века, как Эльчин, Мастан Джунар, Нусрет Кесеменли,Тахир Асланлы, а также доктор философских наук профессор Джахангир Мамедов и др.

1982 – В январе, в Доме Творчества в Дубулты (Латвия) создал серию стихов «Трехтысячеглазая Латвия» и ряд других лирических произведений;
– В составе делегации Союза Журналистов СССР побывал во Франции, участвовал на юбилее газеты «Юманите», объездил Северную Францию и написал поэтическую серию «Стихи о дорогах Франции»;

– В октябре выступил во Фрунзе (Бишкек) на IV конференции молодых писателей Азии и Африки и познакомился с молодыми авторами, приехавшими из разных стран. Написал стихотворение «Это страна мне знакома» .

1983 – В январе-феврале в Доме Творчества в Переделкино работал над новой книгой стихов. За книгу «Ворота Гянджи» был удостоен премии Азербайджанского Комсомола;
– В издательстве «Гянджлик» была опубликована книга «Благодарю тебя, родной язык». Об этой книге было написано много статей и дипломных работ. В книгу включена поэма «Если каждый возлюбит солнце» (о поэтессе Южного Азербайджана Марзии Ускирийе), а также поэма на тему Южного Азербайджана «Не отречется от революции».
– Через девять лет после создания поэма «Жизнь света» была опубликована. Народный поэт Бахтияр Вагабзаде написал к книге предисловие под названием «С гордостью гражданина» .

1984 – В Москве, в издательстве «Советский Писатель» была издана книга С.Рустамханлы «Жду весточки» (в переводе русского поэта Владимира Трофименкова).

1984 – Находился в Литве в творческой командировке, побывал в местах, неразрывно связанных с именем великого польского поэта Адама Мицкевича. Написал серию стихов «В стране степей»

1985 – Перевел на азербайджанский язык «Крымские сонеты» Адама Мицкевича и некоторые образцы его лирической поэзии. Эти переводы были изданы отдельной книгой;
– В издательстве «Молодая гвардия» на русском языке была издана книга «Дорога в горы» п переводе Владимира Трофименко и Олега Шестинского.ж Предисловие к книге нписал Олег Шестинский;
– В феврале того же года приступил к работе над книгой «Книга жизни»;
– Принимал участие в Днях азербайджана в Болгарии;
–Написал серию стихов «Прощай, Черное море моего сердца»;

– Стихи С.Рустамханлы были опубликованы на английском языке в журнале, издаваемом в Индии Ассоциацией поэтов мира .

1986 – В издательстве «Язычы» была опубликована книга стихов «Память крови». В книгу вошли поэмы «Плач потухших очагов» и «Без Родины»;
– Он выступил с докладом в Союзе писателей Азербайджана, который был воспринят как серьезное событие в литературной среде.
– Доклад был опубликован в печати под названием «Дороги правды». Поэт Халил Рза посвятил этому событию поэму «В клубе Натаван»;
– Выступил в Польше на I конференции молодых писателей стран Восточной Европы;
– Участвовал в работе Всемирного литовского съезда в Вильнюсе и познакомился с членами Национально-освободительного движения этой страны;
– Опубликовал в газете «Азербайджан» отрывки из «Книги жизни»;
– Выступил с докладом на VIII съезде азербайджанских писателей и был делегатом на VIII съезде писателей СССР.

1987 – По приглашению турецких друзей посетил Турцию. В журнале «Турецкая литература» опубликована большая статья “Беседа с Сабиром Рустамханлы». Его выступления широко освещались в турецких СМИ под общим заголовком «Сабир Рустамханлы: Турция должна повернуться лицом на Восток».

1988 – 19 февраля в связи с событиями в Карабахе был одним из лидеров площади на первом митинге в Баку;
– 22 февраля представители правительства и интеллигенции Азербайджана на специальном самолете посетили Ханкенди.
– Вместе с тогдашним министром образования Лидией Расуловой на несколько дней посетил Шушу и выступил на городском митинге;

– «Книга жизни» вначале вышла тиражом 30 000 экземпляров, затем - 100 000 экземпляров;
– 1 октября Союзом писателей СССР был командирован в Монголию, где также принял участие в Днях азербайджанской культуры, которые продлились до 18 октября. 7 и 8 октября он посетил памятники Тоньюкук и Орхон-Култыг.Написал поэму «Встреча с Орхоном» и путевые заметки о Монголии.
– Стал одним из основателей организации "Варлыг";
– Активно включился в борьбу из-за событий в Карабахе, неоднократно бывал в Нагорном Карабахе и на границе с Арменией, почти ежедневно проводил встречи в различных регионах, на предприятиях Баку и Сумгаита;
– Был одним из главных лидеров бакинских митингов на площади и одним из лидеров народного движения.
– Выступал на площади 18 дней подряд. Делал телепрограммы о площади и вел прямые трансляции с площади.

1989

– 18-19 февраля в Гянджинском педагогическом университете состоялись встречи с Рафаэлем Гусейновым. На Гянджинском кладбище нашел и посетил могилы поэта Абдуллы Тофика и его брата Джахангира;
– 27-30 апреля вместе с поэтом Аббасом Абдулла посетил Москву. 29 апреля выступил в кинотеатре «Баку» на Празднике азербайджанской литературы, состоявшимся при участии азербайджанцев, проживающих в Москве. О тех днях С.Рустамханлы писал в дневнике: *«Отношение московской прессы к нам, в целом, их отношение к национальным вопросам, а точнее их безразличие - вот основная тема нашего разговора. Москва разжигает распри и ссоры, заняв пост арбитра. Чтобы отвлечь собственный народ от своих же проблем Москва тут и там разжигает костры национальной розни. Наши лакеи-льстецы искренне помогают ей в этой миссии. Произведения Мирзы Ибрагимова и Чингиза Гусейнова, особенно статья Акрама Айлисли в журнале «Дружба Народов», являются позором (1989, № 3). Мы целый день искали С.Баруздина (Сергей Баруздин - редактор «Дружбы народов») Даже если бы наш разговор не сложился, мы бы хоть ему в лицо плюнули. К сожалению, вместе с баруз-*

диными в Москве у нас достаточно баруздинов и предателей в Баку. «Бакинский рабочий», «Вышка», «Литературный Азербайджан» как будто бы издаются в другой стране ».

– 1 июля вместе с Айдыном Мамедовым посетил Агдам и Шушу, где ознакомился с ситуацией в азербайджанских селах;

– 30 сентября в Грузии встретился в селе Сарпи с известным турецким адвокаом и литературным деятелем Ибрагимом Бозйели;

– 12 октября вместе с Ибрагимом Бозйели побывали в Ташкенте, объездили Узбекистан, посетили памятники Самарканда и встретились с узбекскими писателями;

– 15 октября посетил Ашхабад и встретился с туркменскими писателями;

– «Книга жизни » как лучшая публицистическая книга была удостоена премии имени Мирзы Фатали Ахундова Союза писателей Азербайджана;

– Издал на азербайджанском языке книгу стихов Огниена Лакиревича;

– В составе инициативной группы Партии народного фронта Азербайджана (ПНФА) проводил работу среди народа. В знак протеста против разногласий внутри Народного фронта стал одним из основателей Комитета Народной помощи Карабаху;

– С октября начал издавать газету «Азербайджан», ставшей первой ласточкой отечественной демократической печати и оказавшей серьезное влияние на последующую прессу.

– В ноябре-декабре посетил Берлин, недавно объединенную Восточную и Западную Германию, провел встречи в различных городах объединенной Германии, оказал содействие в создании Федерации Азербайджано-Турецких культурных объединений.

1990

– В начале января на конференции НФА был избран членом правления . «Книга жизни» на русском языке был издана тиражом в 50 экз.;

– 16-17 января выступил в Национальной Академии Наук Азербайджана на 2-х дневном совещании азербайджан-

ской интеллигенции. Во все госорганы СССР были подготовлено письмо за подписью 260 человек. Вечером 17 января вместе с группой интеллигентов (Анаром, Эльчином, Диларой Алиевой, Низами Сулеймановым и несколькими академиками) встретился в ЦК с Н.М.Гиренко из Москвы.

– 18 января в Агдамском Государственном театре была поставлена пьеса «Правда давних веков». Не смог присутствовать на премьере по причине надвигающейся к Баку угрозы.

– 25 января состоялось собрание Правления Народного Фронта. На собрании присутствовали только пять человек (Тофик Гасымов, Сабит Багиров, Иса Гамбар и Сабир Рустамханлы). На собрании прозвучали заявления по поводу кровавого января с требованием созвать следующее заседание Верховного Совета до конца месяца и принять соответствующие решения;

– На заседании Верховного Совета 25 января была создана следственная группа для расследования январской трагедии и политической оценки инцидента. В состав следственной группы вошли Мутат Аббасов, Тамерлан Гараев, Тофик Исмаилов, Гусейн Талыбов, Алисахиб Оруджев, Рашид Махмудов, Акрам Шекилинский, Сурхай Тагиев, Мустафа Насиров, Тофик Гасымов и Сабир Рустамханлы;

– 3 марта в Шамахе прошел выездной митинг Народного Фронта, на котором Сабир Рустамханлы выступил с речью, запомнившейся своим объективным отношением к событиям и деятельности фронта;

– Участвовал в мероприятиях, посвященных трагическим событиям в Тбилиси 9-11 апреля. После кровавой январской трагедии в Баку Тбилиси по бакинской традиции также украсили алыми гвоздиками.Это зрелище потрясло грузинскую столицу.

– Жители Тбилиси со слезами наблюдали эту скорбную и величественную картину. Затем С.Рустамханлы провел встречи в Марнеули, Газахе и Агстафе и возвратился в Азербайджан.

– Выступил на съезде Союза Тюркско-исламских культурных ассоциаций во Франкфурте;

– Выступил с докладом об особенностях национально-освободительного движения на I большой межнациональной азербайджанской конференции в Кайсери (Турция);
– Был приглашен азербайджанцами, живущими в Грузии и провел ряд важных встреч;
– Принимал участие и выступил в Стамбуле на Первой конференции межнациональных азербайджано-тюркских объединений;
– Был избран депутатом Верховного Совета Азербайджана от Мехмандаровского избирательного округа №81 города Баку;
– Избран сопредседателем парламентской фракции «Независимый Азербайджан».

1990-1991 – Стихи Абдуллатифа Бендароглу были опубликованы в газете «Юрд» в Багдаде. В Тегеране в журнале «Варлыг» были опубликованы стихи доктора Джавада Хейата, и отрывки из «Книги жизни», а также статьи об этом произведении.

1991 – Он продемонстрировал по телевизору записи митингов в защиту Азербайджана в городах Европы. Из-за запрета на проведение годовщины 20 января, записи вызвали серьезный резонанс;
– Был серьезно ранен, когда в августе обрушилось здание НФА. Вернулся к активной деятельности только через год и девять месяцев;
– Участвовал на последней сессии Верховного Совета СССР в Москве на историческом заседании, положившем конец существованию империи;
– Был назначен председателем республиканского комитета по печати;
– По настоянию парламентского блока «Независимый Азербайджан» парламент Азербайджана принял Конституционный акт о государственной независимости Азербайджанской Республики.

1992 – Выступил на II конференции Министерств Информации и Печати исламских организаций в Каире;

– Парламенты Азербайджана и Ирана провели ряд встреч в Тегеране. Обсуждались темы упрочения информационных и культурных связей между двумя странами;
– В Турецкой Республике Северного Кипра выступил с докладом, посвященным парламентам тюркских государств;
– Посетил международную книжную ярмарку в Тегеране, где выступил на масштабном мероприятии, посвященном Азербайджану и встретился с лидером Ирана Агайе Хаменеи;
– В Нью-Йорке в Ассамблее Тюркско-Американских обществ выступил на II Межнациональном конгрессе, посвященном проблемам тюркского мира;
– На учредительном съезде Партии гражданской солидарности он был избран председателем партии;
– Принимал участие в Днях Шахрияра, проходивших в Иране.

1993

– Принял участие в Первом Конгрессе дружбы и братства тюркских государств и обществ, состоявшемся в Анталии (Турция);
– Удостоен премии «Золотое перо» за заслуги в восстановлении и развитии демократических традиций прессы в Азербайджане;
– Книга «Карабах» издана в Турции, а книга «Я возвращаюсь через Араз» - в Швеции;
– Посетил Турцию вместе с депутатами Милли Меджлиса;
– Посетил Индию в качестве президента шахматной федерации;
– Выступил на конференции тюркского мира в Стамбуле. Провел ряд деловых встреч с турецкими лидерами Греции, Болгарии, Македонии, Косово, Кипра, Ирака, Крыма, Татарстана и др.

1994

– Вместе с Президентом Азербайджана посетил с деловым визитом Китай;
– В составе азербайджанской делегации принял участие в Днях Физули в Ираке и посетил город Киркук;
– Участвовал в собрании министров печати и инфор-

мации СНГ по вопросам сотрудничества по делам книжной торговли и полиграфии. Собрание состоялось в Минске (Беларусь)

1995 – Посетил Индию. Выступил в Сирии на Третьей Конференции Министерств Печати и Информации Стран Исламской Конференции. Побывал в Бейруте (Ливан). Посетил могилу великого азербайджанского поэта Имадеддина Насими;
– Подал в отставку с должности Министра печати и информации. Был избран депутатом Милли Меджлиса Азербайджанской Республики от Ярдымлинско-Масаллинского избирательного округа;
– Выступил на симпозиуме «Социально-экономические проблемы тюркского мира и опыт Турции» в Стамбуле;
– Были изданы книги «Время проходит сквозь меня» и «Это мой народ».

1996 – Вместе с президентом Азербайджана он посетил Люксембург, Бельгию и Норвегию;
– В Театре оперы и балета имени Мирзы Фатали Ахундова торжественно отмечалось 50-летие со дня рождения С.Рустамханлы. На юбилейном вечере присутствовал Президент Азербайджана Гейдар Алиев.
– Указом Президента был награжден орденом «Шохрет» («Слава») Славы. Через некоторое время С.Рустамханлы отказался от ордена.

1997 – На встрече с Ахмадом Ниджати, губернатором Ардебиля в Исламской Республике Иран обсудил вопрос улучшения отношений между соседними районами Ярдымлы и Лерик и провинцией Ардебиль;
– Принимал участие в мероприятиях, проводимых в Турецкой Республике Северного Кипра;
– В Турции была издана книга стихов под названием «Эта страна мне знакома».

1998 – Принимал участие в III съезде писателей тюркского мира в Баку;

– Выступил в Центральной библиотеке в Гааге (Нидерланды) с докладом об азербайджанской литературе и культуре;
– На азербайджанском языке опубликована книга стихов и стихов великого польского поэта Адама Мицкевича «Крымские сонеты», «Пан Тадеуш»;
– Сборник стихов «Тоска по единению» издан в издательстве «Ветен» как первая книга из серии «Единая Азербайджанская библиотека»;
– Посетил Южную Африку и Намибию и выступил на заседании Намибийского и Всемирного парламентских советов.
– Выступил на Втором Конгрессе азербайджанцев мира в Вашингтоне;
– «Книга Жизни» была издана на анатолийском диалекте турецкого языка в Турции;
– Он выступил с докладом на конференции по азербайджановедению в поселке Шарафхана у озера Урмия в Южном Азербайджане.

1999 – Посетил четыре штата США, где наблюдал за избирательным процессом;
– По приглашению Турецкого университета Думлупинар провел конференцию по Карабаху в Муниципальном дворце Кутахия;
– Накануне саммита ОБСЕ в Стамбуле выступил по турецкому телевидению на тему о судьбе Карабаха.

2000 – Партия гражданской солидарности успешно завершила парламентские выборы и была одной из четырех партий, получивших места в Милли Меджлисе;
– С.Рустамханлы создал фракцию Карабаха в Милли Меджлисе и издал журнал «Голос Карабаха».

2001 – Он участвовал и выступал в Днях современной тюркской литературы в Стамбуле;
– Присутствовал на совещаниях по расширению НАТО в штаб-квартире НАТО в Брюсселе.

2003 – Вниманию читателей был представлен роман-мемуары «Хатаи юрду»;

– По специальному приглашению посетил Турцию и встретился с председателями и депутатами ведущих партий братской страны;
– Выдвинул свою кандидатуру на пост президента Азербайджанской Республики.

2004

– «Страна Хатаи» была издана на турецком языке в Стамбуле;
– По инициативе российских представителей Всемирного Конгресса Азербайджанцев (ВКА) провел в Москве встречи в азербайджанских школах и организациях азербайджанских диаспор;
– Выступил на 1-м Международном симпозиуме по армянскому вопросу в Манисе (Турция);
– В мае-июне по инициативе Парламентской ассамблеи тюркских государств посетил Турцию, Кыргызстан и Узбекистан и встретился со спикерами парламентов и депутатами этих стран.
– Во время визита в Среднюю Азию встретился с соотечественниками, проживающими в Чуйской области Казахстана, и ознакомился с деятельностью азербайджанских диаспорских организаций в Центральной Азии;
– Принимал участие в мероприятии «VIII-е Дни тюркского мира» в Кастамону, Турция;
– В соответствии с распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева «Об осуществлении массовых изданий на азербайджанском языке с латинской графикой» были опубликованы избранные произведения С.Рустамханлы;
– Участвовал в заседании Правления ВКА в Стокгольме (Швеция), выступил на митинге наших соотечественников, посвященном 21-му Дню Азербайджана;
– Наблюдал за парламентскими выборами в Узбекистане;
– Провел ряд встреч с различными политическими партиями Большого Национального Меджлиса Турецкой Республики, обсуждал карабахскую проблему, проблемы безосновательных и неоправданных претензий Армении к Турции, вопросы турецко-азербайджанских связей, вопросы создания ассамблеи парламента тюркских государств и др. задачи. Выступал на симпозиумах, конференциях, по телевидению.

2005 – 12 июля распоряжением президента Ильхама Алиева С.Рустамханлы было присвоено почетное звание «Народный поэт» за заслуги перед развитием азербайджанской литературы и культуры;
– Принимал участие в стамбульском заседании Коллегии ВКА, выступил на нескольких телеканалах по поводу ужасающего положения туркманов Ирака;
– Участвовал и выступал на симпозиуме «Проект Великого Среднего Востока, Европейский Союз и Турция», состоявшегося в Трабзонском Университете. В мероприятии также присутствовал тогдашний президент Турецкой Республики Северного Кипра Рауф Денкташ;
– Опубликован роман «Бог Небесный»;
– Выступил в Москве перед представителями азербайджанской диаспоры;
– Выступил на IV международной поэтической конференции празднике поэзии Tokat Yeşil İrmak;
– Очередной съезд ВКА прошел в Стокгольме (Швеция), и Сабир Рустамханлы был избран председателем Конгресса азербайджанцев мира;
– В Турции в издательском доме «Илери Яинлари» вышла книга С.Рустамханлы «Избранные стихотворения»;
– Библиотека Конгресса США запросила книги С. Рустамханлы, изданные в Азербайджане и Турции, и эта просьба была удовлетворена;
– Посетил Турцию и принял участие в обсуждении идеи Парламентской Ассамблеи тюркских государств в парламенте;
– Выдвинул свою кандидатуру в Милли Меджлис Азербайджанской Республики от Ярдымлинско-Масаллинского избирательного округа №72.

2006 – По приглашению Информационного Агентства США с 3 по 18 марта он посетил Нью-Гэмпшир, Хьюстон, Вашингтон, Нью-Йорк, где наблюдал за муниципальными выборами и провел встречи с азербайджанскими общинами.

2007 – Опубликовал роман «Пик смерти» о знаменитом гянджинском хане «Джавад-хане»;

– Отказался примкнуть к группе Азербайджано-иранской дружбы в знак протеста против политики дискриминации турков в Иране

2008 – Издательство «Восток-Запад» опубликовало в одном томе два романа: - «Книга жизни» и «Небесный Бог»;
– Избран новый председатель ВКА;
– Направил открытое письмо Аятолле Сейеду Али Хаменеи на азербайджанском и персидском языках;
– 26 марта принял участие в очередном собрании диаспорских организаций во Франкфурте. Начал писать стихотворение «Разговор с Зией Буньядовым»;
– 30 сентября вместе с сопредседателем ВКА в Вашингтоне Фирудином Парвизния провел ряд важных встреч в Государственном департаменте, Конгрессе, штаб-квартире ООН в Нью-Йорке. Выступил на митинге иранских иммигрантов перед штаб-квартирой ООН.

2009 – 30 января посетил Австралию с рабочим визитом Во время визита открыл в Австралии представительство ВКА, провел ряд важных встреч в Канберре с членами сената Австралии и официальными лицами МИДа Австралии.

2010 – Опубликован роман «Дифаи-подвижники».
– Избран в Милли Меджлис Азербайджанской Республики по Ярдымлинско-Масаллинскому избирательному округу №72;
– 29 января выступил на заседании Парламентского союза стран-членов Организации исламского сотрудничества в столице Уганда (Африка) Кампале;
– 21 февраля побывал с рабочим визитом в Северном Кипре;
– 25 февраля провел заседание правления ВКА в Кельне (Германия);
– 4-6 мая он принял участие в слушаниях по карабахскому вопросу в Брюсселе в здании Сената;
– 19 мая участвовал в мероприятиях организаций турецкой диаспоры в Баку, Франкфурте, Нью-Йорке, выступал в программе «Радио Туркум». Затем встретился в ООН с

Амидом Синкалом, представителем Ближнего Востока из Индии;
– 24 мая посетил Оттаву (Канада). В качестве председателя Межпарламентской группы дружбы Азербайджан-Канада провел ряд важных встреч;
– 21 октября выступил в Конгресс-холле Джавахир в Стамбуле на Всемирном Турецком форуме, организованном Турецко-азиатским центром стратегических исследований;
– 2 декабря выступил в Кельне на форуме Конгресса азербайджанцев Европы.

2011 – Роман «Цунами» опубликован в издательстве «Ганун»;
– 13 сентября выступил в Париже на митинге по проблемам Южного Азербайджана, инициированном ВКА. На митинге участвовали и французские сенаторы.

2012 – Присутствовал и выступил на сессии Парламентского союза Организации стран-членов Исламского Сотрудничества в Индонезии;
– На 12-м съезде ВКА, состоявшемся в Донецке (Украина) избран сопредседателем ВКА;
– Переизданы роман «Подвижники Дифаи», повесть «Дух отца моего», сборник стихов «Вечная любовь».

2013 – Присутствовал и выступил в Судане на заседании Парламентского союза Организации стран-членов исламского сотрудничества;
– Посетил Соединенные Штаты, провел встречи в Государственном департаменте и Конгрессе и выступил на митинге «Прекратить армянскую ложь!» в Нью-Йорке. В ходе визита он также провел встречи с азербайджанскими объединениями и выступил с докладом на конференции, проводимой Турецко-американской ассоциацией;
– Сделал ряд резких заявлений по поводу положения турков в Иране;
– Переиздан роман «Пик смерти».

2014 – Принял участие в праздновании Новруза, организованном азербайджанскими студентами в Москве;

– Участвовал в конференции, организованной Представительством ВКА в Татарстане Днем солидарности азербайджанцев мира;
– Вышла в свет публицистическая книга «Не сгибайся от горя».

2015

– Он присутствовал и выступил в Стамбуле на заседании Парламентского союза Организации стран-членов исламского сотрудничества;
– Был избран сопредседателем 13-го Всемирного Конгресса азербайджанцев мира в Стамбуле;
– Выступил с докладом в Женеве (Швейцария) на конференции посвященной вопросам экологического кризиса;
– 17 июня выступил на Bengu Turk TV с большой программой о Ходжалинском геноциде;
– 17 июля посетил Республику Алтай, написал объемные путевые заметки, некоторые из которых были опубликованы в «Литературной газете» в Москве;
– 29 октября выступил в Стамбуле, на на конференции посвященной турецко-азербайджанской освободительной войне;
– 1 ноября в университете Гиресун (Турция) принял участие во Втором международном симпозиуме «Турки Ахыска». В мероприятии принял участие президент Турецкой Республики Северного Кипра Рауф Денкдаш;
– 28-29 ноября выступил на «Первой межнациональной встрече кавказских тюркологов» в Стамбуле, организованной Институтом Юнуса Эмре при поддержке Института турецкого языка.

2016

– 8 мая посетил Университет Ахи Эвран в Киршехире, Турция;
– Муниципалитет Стамбула издал сборник стихов под названием «Самая прекрасная песня моей страны». Мэр стамбульского муниципалитета Гадир Топпас написал предисловие к книге;
– В культурном центре им. Али Амира в Стамбуле 20 мая состоялся литературно-художественный вечер, посвященный 70-летию Сабира Рустамханлы. Торжество было организовано столичным муниципалитетом Стамбула;

– 23 мая в Азербайджанском Национальном Драматическом Театре состоялся торжественный вечер, посвященный 70-летию С.Рустамханлы.

2017 – 25 марта выступил в Культурном центре Али Амира на митинге, посвященном 25-й годовщине Ходжалинского геноцида. Митинг был организован Департаментом культуры столичного муниципалитета Стамбула;
– Был опубликован роман «Последний труд академика»;
– 22 ноября в Нальчике принимал участие в торжественных мероприятиях, посвященных 100-летию со дня рождения народного поэта Кабардино-Балкарской Республики Кайсына Кулиева;
– 29 ноября выступил на мероприятии, посвященном проблеме Карабаха, в Университете Исмета Инону в городе Малатия (Турция).

2018 – Принял участие в мероприятиях, посвященных Дню национального спасения в Адане (Турция). На организованной в честь этого события книжной выставке в Адане состоялась церемония подписания книг;
– Были опубликованы книги «Наша национальная судьба и мы », и « Астар»;
– 18 марта принял участие в очередном, 12 съезде Партии Гражданской Солидарности;
– 25 апреля выступил на митинге, посвященном 100-летию Азербайджанской Демократической Республики в Амасии (Турция);
– 27 апреля принял участие в обсуждении проблемы по разработке учебников азербайджанского языка для русских школ в Азербайджанском культурном центре в Москве;
– 30 апреля выступил на совместном вечере поэзии азербайджанских и русских поэтов в Культурном центре Сергея Есенина в Москве;
– 22 июня выступил с приветственной речью на инициированном ВКА Карабахском форуме в Международном пресс-центре в Баку и возглавил работу форума;
– Участвовал в книжном фестивале в Махачкале 21 сентября. Побывал в селе Гуниб, последнем форпосте шейха Шамиля и написал статью «У шейха Шамиля»;

– 24 октября на Токатском книжном фестивале, посвященном 100-летию Азербайджанской Республики, состоялась церемония подписания книг и была организована встреча с читателями;
– 30 октября в Казани принимал участие в торжествах, посвященных 70-летию со дня рождения друга юности, народного поэта Татарстана Роберта Миннулина.
– 21 ноября в Стамбуле принял участие в презентации фильма «Сумасшедший»;
– 14 декабря выступил в Анкаре в Университете Гаджи Байрама Вели на конференции, посвященной Южному Азербайджану и принял участие в дискуссиях политических партий и объединений, представляющих Южный Азербайджан.

2019

– 22 марта принял участие в празднике Новруз, организованном азербайджанской диаспорой в Кельне, Германия;
– Книга «Слово выше нас» опубликована издательством «Ганун»;
Институт Фольклора НАНА издал книгу «Сила слова народного»;
В апреле был приглашен в Фонд турецкой литературы в Стамбуле;
– 28 апреля встретился с жителями и школьниками в села Джожуг Марджанлы;
– Был удостоен Литературной премии им. Мирзы Джалила Мамедгулузаде;

– В клубе «Натаван» СП Азербайджана состоялась презентация книги Народного поэта С.Рустамханлы «Слово выше нас».

2021

– 20 мая Указом Президента Азербайджанской Республики Ильхама Алиева С.Рустамханлы был награжден Орденом «Шохрет» («Слава”) за многолетнюю плодотворную деятельность в общественно-политической и культурной жизни Азербайджанской Республики;
– Издан 1-й (Стихи: 1962-1977) и 2-й (Стихи: 1978-1987) том 15-томного «Избранные произведения» в издательстве «Ганун»;

– Институт литературы имени Низами Гянджеви НАНА выпустил книгу «Народный поэт Сабир Рустамханлы: жизнь и творчество» (автор предисловия академик Иса Габиббейли) в издательстве «Наука и образование»;
– Издана поэма “Qarabağa dönüş” («Возвращение в Карабах») в издательстве “Qanun”;
– К 75-летию со дня рождения С.Рустамханлы в Национальной библиотеке Азербайджана имени М.Ф.Ахундова была создана электронно-информационная база данных «Сабир Рустамханлы»;
– Азербайджанская Национальная Библио-тека имени М.Ф.Ахундова опубликовала библиографию «Сабир Рустамханлы» в серии «Выдающиеся личности Азербайджана».

Görkəmli şəxsiyyətlər və qələm dostlarının Sabir Rüstəmxanlı haqqında fikirləri

"Sən yazıçı, şair kimi mənim üçün çox yaxın bir adamsan. O illərdə sənin dediyin sözləri, yazdığın fikirləri deməyə bəzilərinin cəsarəti çatmırdı. Amma sən həm gənc olaraq, həm də öz istedadından istifadə edərək cəsarətin də oldu və onların hamısını yazmağına görə populyarlaşdın, hörmət qazandın və təsadüfi deyil ki, 1988-1989-cu illərdə xalq ayağa qalxanda da millətin önündə gedənlərdən biri olmusan. Şübhəsiz bu hərəkata ilham verənlər, onu müəyyən qədər istiqamətləndirənlər var idi. Onlardan biri də Sabir Rüstəmxanlıdır – öz alovlu nitqləri, öz səmimi sözləri, gözəl çıxışları və cəsarətli addımları ilə insanları daha da ilhamlandırırdı. Mən bunların hamısını qiymətləndirmişəm və indi də qiymətləndirirəm. Bu xalqın və xalq içərisində olan görkəmli insanların xidməti idi və həmin insanlardan biri də Sabir Rüstəmxanlıdır."

Heydər Əliyev,
Ümummilli lider

"Sabir, mən hesab edirəm ki, o vaxtlar həqiqətən xalqın oyanmasında, inkişaf etməsində fəaliyyət göstərmiş adamlara indi heç kəs mənfi münasibət göstərə bilməz və göstərməməlidir. Məsələn, şəxsən sənin özün haqqında danışsaq, mən o vaxtlar sənin fəaliyyətini çox heyranlıqla müşahidə edirəm. Mən Moskvada yaşayırdım, bəzən meydandakı mitinqi Moskva televiziyası göstərirdi. Səni orada tribunada görəndə mən sevinirdim. Çünki yadımdadır, mən burada işlədiyim zaman sən gənc yazıçı, şair kimi, ümumiyyətlə, bizim cəmiyyətdə, o cümlədən mənim nəzərimdə çox hörmətli bir adam idin. Görəndə ki, Sabir Rüstəmxanlı xalqın qarşısında çıxış edir və ədalətsizliyi ittiham edir, bu, məni sevindirirdi."

Heydər Əliyev,
Ümummilli lider

"Yaşlı adam kimi təsəvvür elədiyim Sabir Rüstəmxanlı cavan, arıq, gur qıvrım saçlı bir oğlandı. Məqalən çox gözəldir, məni kövrəltdi, - dedim - məxsusi sənə təşəkkürümü bildirməyə gəlmişəm. Hüseyn sağ olsun ki, sənin kimi istedadlı cavanları yığıb başına. Alnından öpüb, üzümü onunla bir otaqda oturan qocaman jurnalist Məmməd Əkbərə tutdum: "Görürsən, Məmməd

Əkbər, papaqlar altında oğullar var, xəbərimiz yoxdur.” Məmməd Əkbər zarafatla: “Bizim xəbərimiz var!” deyib Sabiri xeyli tərifləd.

“Elə bilirəm Şamonu yenidən tapdım! Bir oğlum getdi, yerinə başqa biri gəldi.”– dedim. Bu bizim ata-oğul münasibətimizin, dostluğumuzun başlanğıcıydı.”

Süleyman Rəhimov,
Xalq yazıçısı

“Biz onu demokratik hərəkatın ən qaynar yerlərində gördük. Sabir bir natiq, təşkilatçı, ictimai xadim kimi fəaliyyətə başladı. Azadlıq meydanında təşkil olunmuş mitinqlərdə, yüzminlər qarşısında, bəzən milyona çatan üsyançılar önündə alovlu, kəskin ictimai məzmunlu, azadlıq və demokratiyaya çağıran çıxışlar etdi. Azərbaycan Xalq Cümhuriyyətinin bərpası, kommunist imperiyasının devrilməsi, rus əsarətinin dağılması, sapı özümüzdən olan partokratlarımızın hakimiyyətdən uzaqlaşdırılması, respublikada yeni demokratik qüvvələrin xalqın taleyinin həllində yaxından və ən fəal şəkildə iştirakı uğrunda mübarizə Sabirin həyat amalına çevrildi. O, tənqidlərdən, təqiblərdən, təhqirlərdən, zindana düşməkdən, dəyənək zərbələrindən, fiziki cəza alacağından qorxmadı. 1988-ci ildən üzübəri davam edən xalq hərəkatının təşkilatçılarından birinə çevrildi. Hər yerdə də Azərbaycanın istiqlaliyyəti, ərazi bütövlüyündən danışdı. Sabir baş redaktoru olduğu “Azərbaycan” qəzetində bu ideyaları təbliğ edənlərə geniş meydan verdi, özü də bir publisist kimi başda dayandı.”

İsmayıl Şıxlı,
Xalq yazıçısı

“Mən Sabir Rüstəmxanlını gəncliyində şair kimi tanıyırdım. Onun vətənpərvərlik və milli ruhda yazdığı şeirlərini bəyənirdim. Romana keçəndən sonra mənim yazdığım konsepsiyalarla o qədər də düz gəlməyən, lakin samballı, dəyəri olan əsərlər yazdı. Mən Sabir Rüstəmxanlını eyni zamanda qeyrətli bir ictimai xadim kimi tanıyıram. O, xalqımızın həyatında son dərəcə gərəkli problemlər ətrafında müzakirələr yürüdür. Və olduqca lazımlı məsələlər qaldırır. Sabir Rüstəmxanlı bizim ən istedadlı ziyalılarımızdan biridir. Mən bundan sonra da Sabirin bəhrəli işləyəcəyinə, daha ağır, samballı əsərlər yazacağına inanır, ona müvəffəqiyyətlər arzulayıram.”

İsa Muğanna,
Xalq yazıçısı

"Əzizim Sabir!

Şəkidəyəm. Bu müddətdə sənin parlamentdəki çıxışını dinlədim və 01.07.1997 tarixli "Hüriyyət"də çap olunan qısa məqaləni oxudum. Parlamentdəki hərtərəfli düşünülmüş, ustalıqla deyilən fikirlərinə görə səni öpürəm. Sən həmişə öz sözünü mərdliklə, kişi kimi, bununla bərabər tutarlı məntiqlə deməyi bacarmısan. İndiki vaxtda mətləbi əymədən, yaltaqlanmadan, yarınmadan həqiqəti demək böyük ağılla bərabər, böyük kişilik tələb edir. Sən bu iki qütbü ağılın və məntiqin hesabına birləşdirməyi bacaran oğulsan. Buna görə də mən səni həmişə çox istəmiş, ömrümün sonuna qədər də səni özümə əqidə qardaşı hesab etmiş və edəcəyəm.

Elçibəy haqqında televizorda verilən əhvalata baxıb iyrəndim. Söyüş, təhqir qüvvət əlaməti deyil, zəiflik əlamətidir. Sən qəzetdə buna çox ağıllı cavab vermisən, Yusif Səmədoğlunun cavabı da çox tutarlıdır. Hər ikiniz çox sağ olun.

Bir məqaləmdə səni "Kişi şair" adlandırmışam. Çünki sən bütün yaradıcılığın boyu qəlbinin səsini yazmış, özünü bizə əsl Kişi kimi tanıtdırmısan.

Əziz qardaşım, xəstəlikdən, zəiflikdən yaxa qurtara bilmirəm. İndi qocalığımı hiss edirəm. Ona görə də əlim qələm tutmur. Bu məktubu çox çətinliklə yazdım. Qələm əlimdə titrəyir. Məktubun pintiliyi zəiflik əlamətidir.

Bir daha səni öpürəm."

Bəxtiyar Vahabzadə,
Xalq şairi

"Sabir Rüstəmxanlı yaradanın verdiyi fitrilik mücəssiməsidir. Uca Rəbbimizin müqəddəs ayəsində buyrulur: "Şübhəsiz ki, lütf Allahın əlindədir, onu istədiyinə bəxş edər. Allah çox böyük kərəm sahibidir!" (Hədid, 29). Həqiqətən, Sizə bəxş olunan nemət Allah-Təalanın kəramət payıdır. İncə ruhlu şair və alovlu vətənpərvər, dönməz əqidə sahibi və millət təəssübkeşi – bu cəhətləri özündə birləşdirən Sabir Rüstəmxanlı Yaradanın verdiyi fitrilik mücəssiməsidir. Və çox şükürlər olsun ki, Siz bu neməti uzun illər boyu şərəf və şövkətlə daşıyırsınız.

Bu gün hamımızın ümumi məsləyi və əqidəsi, heç şübhəsiz ki, müstəqilliyimizin, dövlətçiliyimizin sarsılmazlığı, torpaqlarımızın bütövlüyü uğrunda mübarizəmiz, milli dəyər və zənginliklərimizin qorunmasıdır. Bu sahədə Sizin fəaliyyətiniz danılmaz, uğurlarınız təqdirəlayiqdir. Əminəm ki, inşallah, Tanrının himayəsi və mənsub olduğunuz xalqın məhəbbəti Sizi bundan sonra da çətinliklərdən mühafizə edəcək."

Şeyxülislam Allahşükür Paşazadə,
Qafqaz müsəlmanlarının XII Şeyxülislamı

"Bu misilsiz kitabın gələcək nəşrlərində onu daha da böyütməyə, daha da mükəmməlləşdirməyə imkanlar və faktlar var. "Ömür kitabı" Azərbaycan elmi, mədəniyyəti, tarixi sahəsində indiyə qədər yaradılmış şah əsərlərdən birdir. Onun müəllifi Sabir Rüstəmxanlı həm xalqının məhəbbətinə, həm də dövlətin ən böyük mükafatlarından birinə heç şübhəsiz layiqdir."

Əkrəm Cəfər,
Filologiya elmləri doktoru, professor

"Sabir Rüstəmxanlı eyni zamanda yorulmaz ictimai xadimdir. Uzun illər biz onu Azərbaycanda mətbuatın, nəşriyyatın aparıcı təşkilatçılarından biri kimi görmüşük. Xüsusilə nazir kimi onun xidmətləri hamının yadındadır. Eyni zamanda o, bir millət vəkili kimi həmişə xalqın mənafeyini, özünün ictimai fəaliyyətindən ön plandan saxlamış və şəxsən mənim qənaətimə görə onun heç bir təmənnası olmamışdır.

Mən Sabir Rüstəmxanlıya iki istiqamətdə böyük uğurlar arzulayıram: birincisi ona şair kimi yeni yaradıcılıq uğurları, təzə kitablar, ikincisi, ictimai-siyasi fəaliyyətində, ən başlıcası Milli Məclisdə uğurlar arzu edirəm."

Bəkir Nəbiyev,
Akademik

"Müstəqillik illərində isə Sabir Rüstəmxanlı poeziyasının vətəndaşlıq pafosu daha gur səsləndi. Qarabağ faciəsini, Qara yanvar müsibətini qanayan və yanan qələmlə yazdı. Doğma Azərbaycanın tarixini dərindən bilən, bu gününü bütün varlığıyla yaşayan, gələcəyini daima düşünən şair yaradıcılığında eyni zamanda bütün türk dünyasını əks etdirir. Şəxsən gedib gördüyü Orxan yazılarından çağdaş Türkiyəyə qədər Krım təəssüratlarından Kipr, Kərkük intibahlarına qədər böyük türk aləmi Sabir poeziyasının coğrafi və poetik xəritəsidir."

Anar,
Xalq yazıçısı

"...Doğrudan da qəlbində istedad qığılcımı olanı bir şeirindən də tanımaq olar. Sabir Rüstəmxanlı şeirin vəzifəsini bilir, onun poetik ideya istiqamətini, vətəndaş qayəsini dərk edir."

Məmməd Araz,
Xalq şairi

"O, ictimai xadim kimi çox məşhurdur. "Ömür kitabı" əsərindən tutmuş Meydan hərəkatına, Meydan hərəkatından tutmuş bugünkü proseslərə kimi bir simada qalan, bir yolu olan mən deyərdim ki, yeganə insandır. Ədalət uğrunda mübarizədə, Azərbaycan xalqı qarşısına çıxan problemləri öz təfəkkürü ilə həll etməklə böyük bir yol keçib. "Ömür kitabı" bütün evlərin bəzəyidir, bütün evlərin iftixar olunası kitabıdır.

Sabir Rüstəmxanlı Azərbaycan ictimaiyyətinə həddindən artıq çox lazımlı bir şəxsiyyətdir. Sabiri təkcə öz rayonunda yox, Azərbaycanda yox, Cənubda da çox istəyirlər. Onun beynəlxalq ictimai fəaliyyəti Avropada da məşhurlaşıb. Onu DAK sədri seçiblər. Deməli, Sabir respublikamızda ictimai xadim, Xalq şairi kimi, Cənubi Azərbaycanda Təbriz qeyrəti çəkən oğul kimi, beynəlxalq aləmdə, diaspor dünyasında öz sözünün kəsərliyi ilə tanınır və sevilir."

Söhrab Tahir,
Xalq şairi

Azərbaycanın Xalq şairi, millət adamı (onun rəsmən daşıdığı "millət vəkili" titulu da var. Amma çox adam millət vəkili ola bilər, hər millət vəkili əsl millət adamı sayılmaq mərtəbəsinə yüksəlməz) Sabir Rüstəmxanlı söz yox ki, Mirzə ələkbər Sabirdən sonra Sabir adı qoyulmuş ilk azərbaycanlı deyil.

O Sabirlə bu Sabir ayrı-ayrı məktəblər, fərqli üslublar, bənzəməz yazı tərzləridir. Lakin o Sabir bu Sabirin işərisində döyünür. Onların amalları, məsləkləri bu yurda və xalqa məhəbbətləri eynidir. Bu Sabir o Sabirin uğrunda can qoyduğu amalları bütün yaradıcılığı və ictimai fəaliyyətləri boyunca daşıyan insandır. Bu Sabir o Sabiri XX yüzilin əvvəlində ağrıdan dərdləri XX yüzilin son onillərində, XXI əsrin əvvəllərində qələminə gətirən, köhnə dövrdə misilsiz adaşının deməyə, yazmağa macal tapmadıqlarını yeni zaman içərisində ədəbiyyat ötkəm sözünə çevirəndir.

Sabir Rüstəmxanlı bu günədək yaratdıqları ilə görkəmli babasının etibarlı nəvəsi, onun möhtəşəm ruhunun sağlam daşıyıcısı olduğunu dönə-dönə sübuta yetirib. Yol isə davam edir və Sabir Rüstəmxanlının yaşayıb-yaradacağı çoxlu illər, deməli, Böyük Adaşının əsl varisi olduğunu, daşıdığı şərəfli ada layiqliyini, həqiqətə, qələmə və xalqa sədaqətini yenidən dəfə-dəfə təsdiqləmək imkanları hələ qarşıdadır.

Rəfael Hüseynov,
Akademik

"Əziz, möhtərəm qardaşım, Sabir Rüstəmxanlı!

Mənə "Ömür kitabı" adlı əsərinizi göndərmişsiniz. Sizə çox-çox təşəkkür

edirəm. Keçən il "Azərbaycan" jurnalında o kitabın ixtisar edilmiş parçalarını oxuyandan bəri bu əsərin röyası ilə yaşayıram. Sizdən gizli deyil ki, mən Azərbaycanın dəlisiyəm, ümumən Türk mədəniyyətinin məftunuyam. Hələ kitabı bütövlükdə oxuyub qurtarmamışam. Ancaq mənə gün kimi aydın oldu ki, bu əsər odlu bir vətənsevərin ürəyindən qopub. Özü də ki, Qərbdəki erməni propaqandasına cavab vermək üçün mənə gözəl və tutarlı məlzəmə verib. Yəqin ki, ondan dönə-dönə müstəfid (*faydalanan – E.N.*) olacağam."

Əhməd Horst Şmiede,
Alman əsilli şərqşünas alim

"Əziz Sabir Rüstəmxanlı! Sizin Xalq şairi adına layiq görülməyinizlə bağlı bu günlərdə dövlət başçısının yanındakı çıxışınız mənim qəlbimi riqqətə gətirdi. Siz qısa fürsətdən istifadə edərək Azərbaycan ziyalılarının və ümumiyyətlə bu ölkə insanlarının problem və qayğılarına o qədər dərindən və əsaslı şəkildə nüfuz etdiniz ki, mən indi də o çıxışı yadıma salanda həyəcanımı gizlədə bilmirəm. Bu, sizin rəsmi şəkildə xalq şairi adını almazdan çox-çox öncə bu xalqın şairi olduğunuzu bir daha təsdiqləyir."

Teymur Kərimov,
Akademik

"Sabir Rüstəmxanlı tanınmış şair, alim və görkəmli dövlət xadimidir. Onu tanıdan, görkəmli edən məhz ağıllı, səbatlı olması, cəsarətli, ötkəm çıxışları, yazıları və kitablarıdır.
Sabir Rüstəmxanlı milli keyfiyyətlərə malik gözəl ziyalıdır, kamil insandır. Buna görə də sevilir."

Elməddin Əlibəyzadə,
Filologiya elmləri doktoru, professor

"Biz insanların kitabın cazibəsinə necə düşməsinin nümunəsini Sabirin "Ömür kitabı"nda gördük. Nə ona qədər, nə də ondan sonra belə bir nümunə olmamışdı. Bu bir hadisə idi və yalnız ədəbi hadisə deyildi. Ondan daha böyük milli hadisə idi. "Qələmin müqəddəs vəzifəsi millətə xidmətdən keçir", deyən M.Ə.Rəsulzadə sanki bu sözləri "Ömür kitabı" üçün yazmışdı. İnsanların, xüsusilə gənclərin bir milli iman olaraq tapındığı bu həzin "millət nağılı" çoxlarının həyata baxışını formalaşdırdı. Milli ideya yüzminlərlə tirajlarla nəşr olunan bu kitabın sətirləri arasından milyonlarla evlərə daxil oldu və maddi qüvvəyə çevrildi. Əslində, "Ömür kitabı" ədəbiyyatın milli ideyanın forma-

laşmasında necə tükənməz bir imkanlara malik olmasının əyani təsdiqi, 60-cı illərdən başlayan milli dirilik ədəbiyyatının çox güclü bir yekunu idi.”

Cəmil Həsənli,
Tarix elmləri doktoru, professor

“Əziz qardaşım, Sabir Rüstəmxanlı bəy!

Siz ilk şeirləriniz çıxandan bəri, xalqın qarşısına çıxıb ilk çıxışlarınızı etdiyinizdən bəri, Azərbaycanın məsuliyyətini idrak etmiş gerçək yurdsevər olaraq hərəkət etmisiniz; xalqın dərdinə və sevincinə tərcüman olmusunuz. Ən önəmlisi də millətinizin bir fərdi olaraq hər zaman qürur duymusunuz; xalqınızın ruhunu tanıyıb onu dünyaya tanıtmaq üçün çalışmısınız.

Nə mutlu Sizə ki, xalqınızın Sizdən gözlədiklərini reallaşdıraraq şərəfli bir ad qazanmısınız. Sizə sağlıqlar sunar, həsrətlə gözlərinizdən öpürəm, kardaşım!”

Yavuz Akpınar,
Türk ədəbiyyatşünas- alimi

“Salam, əziz Sabir ağa!

Sizə bu məktubu Özbəkistandan, Sizin gözəl şeirlərinizi ürəkdən sevən və bənzərsiz, böyük yazıçı istedadınızı yüksək qiymətləndirən adamlar yazırlar.

Sizin Vətən sevginiz, vətəndaşlıq borclarınız və kökünə bağlılıq duyğularınız bizə də doğmadır. Şeirləriniz milli şüurun gücləndiyi indiki vaxtda xüsusi əhəmiyyət kəsb edir. “Məni sevirsənsə” adlı lirik şeiriniz son dərəcə təsirlidir. Parlaq və ürəyin bütün odunu daşıyan misralar hərarətli və zərifdir. “Biz belə uşağıq”, “Şairlik nəyimə gərəkdir?”, “Çiyinlərimiz”, “Boş qalmış yuvalara dəyməyin”, “Yenə də yan keçdi bu yaz yağışı”, “Kiçik qardaş”, “Yardımlı yollarında” və s. bir-birindən gözəl şeirlərdir.

Çox xahiş edirik, bizə məktub yazın, şəklinizi və kitablarınızı göndərin. Biz əsl ədəbiyyatın təmənnasız təbliğçiləriyik.

Sizin ürək dostlarınız adından klubun rəhbəri.”

Vladislav Abdurazakov,
Özbək yazıçısı

“Başqaları ən adi və nisbətən qorxusuz-ürküsüz həqiqəti dilə gətirməkdən uçunduqları bir zamanda Sabir Rüstəmxanlı kəfənini boğazına dolayıb ən sərt ittihamlı publisistik əsərlərini: dişli-damaqlı əsərlərini yazıb, soyunu öz ilkinliyinə boylanmağa səsləyirdi.

Bu alovlu şair, yenidən-yeni təfəkkürlə qələm çalan bu filosof-publisist təkcə yazdıqları ilə kifayətlənib, o yazıların şöhrəti kölgəsində baş girləmədi; zamanın başlar üzən, qanlar tökən bir çağında meydanlara axışan insanlara, sözün həqiqi mənasında, haqqa bələdçilik etdi. Vətəndaşlarımızın dolub-daşan qəzəblərinə ağılla, səbirlə çəki-düzən verməkdə səriştəli bir ziyalımız olduğunu hünərlə göstərə bildi.

Sabir bəyin o zamankı yorulmaz fəaliyyətinin hələ də öz həqiqi qiymətini almadığı qənaətindəyəm."

Məmməd Aslan,
Şair

"Sabirin milli alicənablığı alternativ düşüncəsinin tərkibindəki etiraz etmək bacarığına və azadlıqsevərlik mövqeyinə özünəməxsusluq qatır. Buna görə də sovet imperiyasının oğlan çağında xalqımızın millətçilik və yurdsevərlik duyğularının oyanmasındakı ciddi rolu onun nüfuzunu çox-çox böyütmüşdü. İmzası ən oxunaqlılar və mötəbərlər sırasında hesab olunurdu. Və bütün bunlar Sabir Rüstəmxanlını ötmüş XX əsrin səksəninci illərinin axırlarında başlanan milli azadlıq hərəkatının fəallarından biri olmasına gətirib çıxartmışdı."

Hidayət,
Şair-dramaturq

"Mənə görə Sabir Rüstəmxanlının görkəmli ictimai xadim, xalq şairi, fədakar millət vəkili və sair bu kimi fəxri titullarından daha uca bir titulu var: DOST.

İnsana əbədi ucalıqlar qazandıran bir titula sahib olmağın yolu daha çətin və daha mürəkkəbdir. İlk növbədə qəlb kamilliyi, böyük və təmənnasız insan sevgisi, sonsuz səbr və nəciblik tələb olunan bu yolu sona qədər alnıaçıq, üzüağ getmək hər kəsə nəsib olmur. Düşünürəm, bu da bir vergidir – peyğəmbərlik və şairlik kimi, yazıçılıq və rəssamlıq kimi.

Ən çətin və çıxılmaz məqamlarda özünü vaxtında yetirmək bacarığı, ortaya çıxan problemləri mümkün və qeyri-mümkün üsullarla dəf edə bilmək məharəti, insan və dost sevgisini əlçatmaz ucalıqlarda qoruyub saxlamaq qüdrəti...

Uzun illər boyu Sabirdə gördüyümüz bu keyfiyyətləri dilə gətirmək, olub-ötənləri xatırlayıb tarixi və dəqiqəsi ilə təsvir etmək üçün bəlkə də samballı kitab yazılmalıdır."

Afaq Məsud,
Xalq yazıçısı

"O, millət uğruna gördüyü işlərin işığında gerçəklikdən daha çox ölməz nağıl qəhrəmanına oxşayır. Getdiyi yolda yüz dəfə uçurumdan keçən, tələdən, tordan adlayan, ölməzlik qazanan bir qəhrəman.

Mən bu 33 ildə onu gah işığı söndürülmüş salonlarda, məşəl işığında şeir oxuyan gördüm, gah dar ağacında, gah şöhrətinin zirvəsində gördüm, gah da düşmənlərinin qurduğu tələdə. Ancaq o həmişə ilk dəfə gördüyüm adam idi və bu adam 33 ildə Tanrının onu qaldırdığı ucalıqdan enmədi.

İstiqlal uğrunda meydan savaşları başlamazdan hələ çox-çox əvvəl S.Rüstəmxanlı ruhumuzdakı savaşın baş qəhrəmanı və sərkərdəsi idi. Kim nə deyir desin. Milli Azadlıq Hərəkatının tarixi S.Rüstəmxanlının tərcümeyi-halıdır."

Rüstəm Behrudi,
Şair

"Sabir Rüstəmxanlı adı son qırx ilin Azərbaycan ədəbiyyatı tarixində şübhəsiz ən çox istinad edilən adlardan olacaq. Bu ad həm də Azərbaycanın ikinci müstəqillik dönəminin bütün parlaq səhifələrində əvəzsiz bir dəyərə sahibdir. Yəni o, təkcə şeir səngərində öz acılarını ovutmaqla yetinmədi, harada Azərbaycan davası varsa, harada Azərbaycanın taleyinin çözülməsi məqamı varsa, ön saflarda yerini almağı borcu hesab etdi. Şeirini, romanını, publisistikasını, siyasi çıxışlarını bütövlükdə bir ömür kitabı formatında ortaya qoydu və ən başlıcası da bu ömür kitabını ömrünü həsr etdiyi millətə oxutdurdu."

Fazil Mustafa,
Millət vəkili

"Sabir Rüstəmxanlının "Sağ ol, ana dilim" şeirini Bəxtiyar Vahabzadənin eyniadlı şeirinin davamı kimi də oxumaq olar, biri öyüd verir, öyrədir, ilkinliyə qaytarır, digəri birincidən gələn milli siyasəti yeridir (harda bircə kəlmə sözüm yaşayır, oranı halalca yurdum sanmışam), hər şeyə – tarixə, millətə, milli ruha ana dilindən, onun tarixin müxtəlif mərhələlərində yaralanmış (ipək nəğmələrim güllə batmazdı) sözlərin ruhundan baxır..."

Cavanşir Yusifli,
Ədəbiyyatşünas, tənqidçi

"Mən onun şeirlərini sevə-sevə oxuyuram, onun "Ömür kitabı"nı, sonra çap olunan nəsr əsərlərini, xüsusilə, son vaxt çıxan "Göy Tanrı"nı yaradıcılıq uğuru

hesab edirəm və onu da deməliyəm ki, bu təkcə onun uğuru deyil, bütövlükdə ədəbiyyatımızın uğurudur. Sabir Rüstəmxanlı bizim elə qələm sahiblərimizdəndir ki, siyasət aləmində də öz sözünü deyir, özü də cəsarətlə deyir, ürəklə deyir. O, Milli Məclisdə bütün proseslərə öz mövqeyi olan, öz baxışı olan, müstəqil düşüncə tərzinə malik millət vəkillərindən biridir. S.Rüstəmxanlı təkcə öz seçicilərinin dərdini demir, o, bütövlükdə millətin dərdlərindən danışır. Özü də cəsarətlə deyir o dərdləri, ucadan deyir."

Əlibala Hacızadə,
Yazıçı

1971-ci ildə Vətən Sabir Rüstəmxanlıya görə, həm də Mirzə Ələkbər Sabirin "Fəxriyyə"sidirsə, o zaman, demək ki, Rüstəmxanı hələ 20 yaşından etibarən milli mücadilənin ön sıralarındadır...

Yavuz Bülənd Bakilərin bir "Turan" şeiri var. Bakilər Sabir Rüstəmxanlını Turanın ən qədim ruhu adlandırır, onu Mahmud Kaşkarlıdan başlayaraq, Çingiz Aytmatova qədər gəlib-keçmiş türk böyükləri ilə bir sırada görür...

Azər Turan
Ədəbiyyatşünas, alim

"S.Rüstəmxanlı müdrikliyə qovuşacağına şübhə etdiyi üçün kitabı ömrünün çiçəkləndiyi dövrdə yazıb. Mən isə bu vaxtımda ömrün macal verib-verməyəcəyindən şübhələnərək belə ağır və müqəddəs bir işi yarımçıq qoymamaq üçün başlamışam. Yəqin ki, bizim cavanlarımız bundan özlərinə bir nəticə çıxaracaqlar.

Qaqauzların da "Ömür kitabı" yaranmalıdır."

Mind Kösa,
Qaqauz şairi

"Sibirin qabaqcıl düşüncəli gənc şair və yazıçıları imkan dairəsində yığışaraq öz kökü, tarixi, dini, dili, sonrakı taleyi barədə tez-tez fikir mübadiləsi aparırlar. Belə yığıncaqlar Xakas gənclərinin də marağına səbəb olur. Mən həmin görüşlərdə Sabir Rüstəmxanlının kitabından bir çox yerləri oxumağı nəzərdə tutmuşam. Bu bizim sonrakı yolumuzun daha da aydın olmasına yardım edər. Biz gənclərə bu ruhda kitablar hava və su kimi lazımdır."

Sibney Tem
Xakas şairi

"S.Rüstəmxanlı tək Azərbaycanda deyil, digər ölkələrdə də tanınır. Türkiyədə, İranda... tanınmaq yaxşı haldır, lakin hər yazıçı, şair, publisist, azsaylı türk xalqlarının oxucularına yol tapa bilmir. Bu da təsadüfi deyil. Ötən illər ərzində keçmiş Sovetlər Birliyində yaşayan azsaylı xalqlar yox olmaq təhlükəsi qarşısında idilər. Bizim yazarlarımızdan çox az-az adam arzulayırdı ki, onu, məsələn, saxalar, barabalar, tuvalar, çulimlər və b. tanısınlar. Hamı Moskva, Kiyev, Leninqrad və bu kimi böyük şəhərlərin oxucuları arasında şöhrət qazanmağa çalışırdı. Xalqın kökünü, milli ruhunu, tarixini araşdırıb üzə çıxartmaq da hər kəsi maraqlandırmırdı. Belə bir şəraitdə Sabir Rüstəmxanlı "Qan yaddaşı", "Ömür kitabı" və s. kimi əsərləri, publisistik yazıları ilə xalqın milli duyğularını silkələdi, oyatdı. Tez bir vaxtda onun kitabları türklüyünü dərk etməyə başlayan azsaylı türk xalqları arasında da yayıldı. Artıq S.Rüstəmxanlının kitablarının sorağı tək İrandan, Türkiyədən deyil... Qızıldan, Ağbandan, Komratdan, Krımdan, Yakutskdan və türk xalqlarının yaşadıqları digər yerlərdən gəlir."

Güllü Yoloğlu,
Türk yazarı

"Ancaq o imtahan günlərində Nizami küçəsi 49-da yerləşən ADU-nun korpusunun abituriyentlərin diqqət mərkəzində olan iki nəfərin surəti heç cür gözlərimin önündən çəkilmirdi – sonralar böyük aktyor kimi xalqımızın sevimlisinə çevrilən Səməndər Rzayevin, bir də vətənpərvər şeirləri, alovlu publisistikası, Azadlıq meydanındakı "ürəkdən tikan" çıxaran çıxışlarıyla milyonların məhəbbətini qazanan Sabir Rüstəmxanlının. Həmin günlərdə bu iki kənd uşağı od tutub yanırdılar. Hələ ilk yazılı imtahandan sonra hamımıza gün kimi aydın olmuşdu ki, onlar universitetə mütləq qəbul olunacaq. Uşaqlar imtahan başlamazdan bir neçə saat əvvəl topa-topa onların başına yığışır, sual atəşinə tutur, bilmədiklərini öyrənir, yaddaşlarını təzələyirdilər. Onlar da sanki yüz ilin tələbəsi, müəllimi, filologu, tarix mütəxəssisi kimi aramsız danışır, biliklərini əsirgəmədən hamını yola verir və təbii ki, özləri də imtahanlardan alnıaçıq, üzü ağ, "əla" qiymətlə çıxırdılar."

İntiqam Mehdizadə,
Yazıçı-publisist, jurnalist, ssenarist

"Mən Azərbaycana, ustadımın və dostumun yanına gəlmişəm. Bunun çox işıqlı və hətta deyərdim ki, romantik bir tarixçəsi var. Hər bir şairin yaradıcılıq yolunun başlanğıcında onu ustad kimi ədəbiyyata yönləndirən bir insan olur.

Mənim həyatımda belə bir insan gözəl udmurt şairi Vladimir Vasilyeviç Romanov olub. Vladimir Romanov SSRİ-nin ən aparıcı milli rus müəllifləri pleyadasına mənsub idi. O, enerjili, iti zəkalı, səmimi insan və əsl şair idi. Artıq onunla ilk tanışlıq illərində mən ondan Gənc Yazıçıların Ümumittifaq seminarında tanış olduğu azərbaycanlı həmkarı Sabir Rüstəmxanlı haqqında eşitmişdim.

Qeyd etmək lazımdır ki, öz dövründə, yəni ötən əsrin 80-ci illərində Sabir Rüstəmxanlının işıq üzü görən "Ömür kitabı" dərhal Rusiyanın milli müəlliflərinin ən çox oxunan məşhur kitabları siyahısına düşüb. Özünə hörmət edən milli müəllif üçün bu kitabı oxumamaq mümkünsüz bir iş və özünə hörmətsizlik idi. Bu kitab haqqında Moskva görüşlərində də həmkarlarla istənilən qədər müzakirələr aparmaq olardı. Çünki onun mövzusu bizim çoxmillətli ədəbi mühitimizin ən düşündürücü məqamlarını əhatə edirdi. Kitab öz xalqı haqqında bütün milli müəlliflərə hədsiz yaxın olan tarixi həqiqətin məhvərini önə çəkirdi."

Vyaçeslav Ar-Serqi,
Udmurtiyanın Xalq yazıçısı

"Bu gün şair, yazıçı, millət vəkili Sabir Rüstəmxanlı Bakıdan bütün Azərbaycanımıza Hamarkəndin ucalığından baxır. O kəndin təbiəti, sakinləri kimi Azərbaycanın və onun vətəndaşlarının istəyini, ovqatını, nəbzini, durumunu gözəl duyur, görür. Bəlkə Hamarkənd ucalığında dayandığına görə Sabir Rüstəmxanlının səsi Almaniyaya, Türkiyəyə, İrana, İraqa, Çinə, Kanadaya, Avstraliyaya, Amerikaya... gedib çatır, əks-sədası yenidən Vətənə qayıdır."

Azər Abdulla,
Şair

"Necə, nədən və hardan başlamanın yollarını Böyük Türkün böyük oğlu Sabir Rüstəmxanlı göstərdi. "Gəncə qapısın"da, "Ana dili"ndə salam verib "Qan yaddaşı"na üz tutmaqdadır. Vətəninin xilaskarı Azərbaycan torpaqlarının bütövlüyü, böyük əzəli və əbədi Turanın bərpası, türkün özünə qardaşı "Qan yaddaşı"na dönmən üçün, özünü tanımaq üçün, taleyini min illərdən bəri verdiyi yolun kitabını, özünün "Ömür kitabı"nı oxumalı idi, özü-özünü öyrənib dərk etməli idi. Yazıldı "Ömür kitabı" Sabir bəyin ruhunda on min illik türk yaddaşında doğuldu, böyük bir millətin, "Ömür kitabı". Ruhlarda qasırğaya, dillərdə savaş nəğmələrinə, əllərdə qılınca döndü "Ömür kitabı", "Zamanı qanından, ruhundan keçirib", "Bu sənin xalqındır" deyib haray çəkdi Sabir bəy."

Nurəddin Mehdixanlı,
Xalq artisti

"Sabir Rüstəmxanlının hənuz çəkmədiyim portreti bütöv bir dövrün içində yaşadığımız zamanın obrazıdı. Bu portretin adında böyük hərflərlə yazılacaq insanın məni və ruhu bütöv təzahürləri ilə öz əksini tapır.

Sabir bəy Türkün qan yaddaşını oyadan qatlı bir şamdı, mən o qatlı şamın obrazını ağ kağızın yaddaşına köçürə bilsəm, nə mutlu mənə.

İndi mən bu yazını yazdığım anlarda Sabir bəy hardadır – bilmirəm. Bakıdadırmı, Yardımlı dağlarının qoynundadırmı, gözəlim İstanbulun orta yerindədirmi, bəlkə Alatay dağlarında, bəlkə Parisdə dolaşır. Bilmirəm. Mən bir həqiqəti bilirəm, şair hara getsə, harda olsa, zaman onun izi ilə gəlir."

Adil Mirseyid,
Rəssam, şair, tərcüməçi

Sabir Rüstəmxanlının düşüncələrindən

Nə qədər ki, Azərbaycan öz torpaqlarını düşməndən təmizləməyib, dövlətçiliyinin, müstəqilliyinin, milli azadlığının daimi və möhkəm təminatını yaratmayıb. Heç bir qələm sahibinin mübarizə meydanından çəkilməyə haqqı yoxdur.

Ədəbiyyatın bir əsas vəzifəsi var: insanın və zamanın bədii dərki! Ədəbiyyatın bir ali tənqidçisi var: yazıçının öz vicdanı!

Millətini, insanlıq dəyərlərini qorumaq əvəzinə, özünü qorumaq duyğusu ilə yazılmış, həqiqəti ifadə etməyən, yalançı, məddah, hər iqtidarın vaxtında bir rəngə boyanan əsərlərlə dünya ədəbiyyatı üfüqlərinə necə yol açmaq olar? Ədəbiyyatımızın böyüməsini və tanınmasını istəyiriksə, ilk növbədə bu suallar aradan qalxmalı, yəni yazıçılar təzyiq və qorxu mühitindən azad olmalıdırlar...

Şairin də əkin sahəsi, daşı, rəngi şeirdir. Lakin şeir fiziki enerji deyil, ruhun, duyğunun enerjisidir. Şairlər yaşayır, ölüb gedir. Lakin onların zamanın, uçub gedən anların əlindən qoparılmış duyğuları, hissləri şeir abidələrində qorunub saxlanılır.

